Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Klassik şeirimizin iftixarı– Məhəmməd Füzuli

**Məhəmməd Füzulinin 530 illik yubileyi münasibətilə mərkəzi kitabxanalarının uşaq şöbələri, MKS-in şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait**

**Bakı -2024**

**Tərtibçilər:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Klassik şeirimizin iftixarı– Məhəmməd Füzuli:** Uşaq kitabxanalarında Məhəmməd Füzuli yaradıcılığını gənc kitabxanaçılara, oxuculara çatdırılması məqsədilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS - nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F. Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. R.Məmmədli ixt.red. və burax.məsul Ş. Qəmbərova; red.K. Ağazadə. – Bakı: F. Köçərli ad.Respublika Uşaq Kitabxanası, 2024. - 65 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2024**

# Giriş

Bəşər tarixi insan mənəviyyatının, qəlbin mürəkkəb, zəngin, həyatının bu dərəcə əyani, dürüst, zərif və tam bir şəkildə ifadəsini verən tək-tək sənətkarlar tanıyır ki, Füzuli bunların birincilərindəndir. Məhəmməd Füzuli yalnız Azərbaycan xalqının, yalnız öz əsrinin deyil, bütün bəşəriyyətin, böyük sənətin böyük oğludur. Əsrlərdir ki, mədəniyyət dünyasında şeir, sənət anlaşılan, sevilən hər bir ölkədə və cəmiyyətdə bu böyük dahinin adı iftixarla yad edilir və əbədi olaraq yad ediləcəkdir. Bu böyük şeir dühasının əsərlərilə dərindən tanış olanda heyrət bizi götürür. Biz bu nadir və qadir "şeir ustadının", "qəlblər mühəndisinin", "könül mülkünün sultanının" hətta ayrı-ayrı lirik əsərlərinə səcdə etməkdən özümüzü saxlaya bilmirik. Yüksək zövq sahibi, sənətin xarüqələrini duyub dərk edən adamlar Füzulinin şeir gülüstanında özlərini vəcd və heyrətdən xilas edə bilmir, Füzuli misralarından tükənməz mənəvi, estetik zövq alırlar. Füzulinin "təkəllüm" etdiyi yerdə nəinki daş-divar, şəkillər, surətlər dilə gəlir, əksinə, ən mahir və qadir natiqlər də susmalı olur. Füzuli sənətinin qüdrətini, miqyasını, məziyyətlərini təhlil və təyin etmək bir nəfərin, bir elmi məktəbin, hətta bəlkə də bir elmi nəslin işi deyildir. Bu böyük və şərəfli vəzifə ədəbiyyat, sənət, dil, fəlsəfə elmlərinin qarşısında durmaqda və həllini gözləməkdədir.

Belinski sənətkarların yaradıcılıq ilhamını təbiət hadisələrilə müqayisə edərək bəzisini yaşıl kənarlı arxlardan gələrək axan duru suya, bəzisini isə kükrək dalğalarla aşıb-daşan Niaqara şəlaləsinə, bir qismini də sahilləri və dibi görünməyən, yeri-göyü əks etdirən mühit dənizlərinə bənzədir. Füzulinin sənəti, şübhəsiz ki, axırıncılardandır.

Buna görə də uşaq kitabxanalara təqdim edilən bu vəsaitin yazılmasında əsas məqsəd Füzuli sənəti, şeir qüdrəti haqqında müasirlərimizlə edilən maraqlı bir müsahibə, onun zəngin yaradıcılığını oxucularımıza çatdırmaqdır.

# Söz sənətinin mahir rəssamı

## I Bölmə:  Həyat və yaradıcılığı

Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatının inkişafında əsaslı yer tutan, Şərq xalqları ədəbiyyatına güclü təsir göstərən, zəngin ədəbi irsə malik olan, orta əsrlər ədəbiyyatımızda ana dilində yaranan şeirin, lirik poeziyanın ən böyük yaradıcılarından biri olmuşdur. O, öz bədii yaradıcılığı ilə gənc nəslin tərbiyəsində əsaslı xidmət göstərmişdir.

Füzuli sənəti, zəngin şeir yaradıcılığı öz xalqının malik olduğu böyük ədəbi-bədii mirasa əsaslanır. Füzuli lirikasının əsil qüvvət və qüdrət mənbəyi xalqdır, həyatdır. Lakin aydındır ki, söz sənətinin ən böyük nailiyyətlərindən biri olan Füzuli şeiri yalnız yüksək mədəni inkişaf nəticəsində yarana bilərdi. Füzuli üç dili mükəmməl bilməsi sayəsində türkdilli xalqların mədəniyyətini, fars və ərəb dillərində yaradılmış elmi, ədəbi abidələri əsaslı sürətdə öyrənmiş mütəfəkkir bir sənətkardır. Onun çoxcəhətli, zəngin yaradıcılığında əsas, həlledici yer tutan lirikası Azərbaycan ədəbi-tarixi inkişafının qanunauyğun bir yekunu kimi bir tərəfdən doğma xalqın gözəl bədii ənənələri, digər tərəfdən də qədim mədəniyyətə malik olan Yaxın Şərqin mədəni nailiyyətləri əsasında təşəkkül tapmışdır. O, Nəsimidən sonra ana dilimizdə Azərbaycan şeirinin ən gözəl nümunələrini yaratmışdı. Onun çoxcəhətli, zəngin yaradıcılığında əsas, həlledici yer tutan lirikası Azərbaycan ədəbi-tarixi inkişafının qanunauyğun bir yekunu kimi bir tərəfdən doğma xalqın gözəl bədii ənənələri, digər tərəfdən də qədim mədəniyyətə malik olan Yaxın Şərqin mədəni nailiyyətləri əsasında təşəkkül tapmışdır. Füzulinin Azərbaycan bədii fikir tarixinə, eləcə də türkdilli xalqların ədəbiyyatına gətirdiyi ən gözəl keyfiyyətlərdən biri müasirlikdir. Şair öz qəsidələrində xalqın təcrübəsinə arxalanan müdrik həyat müəllimi, elmin nailiyyətləri ilə silahlanmış bir alim, kütlələrin ağır həyatını dərindən duyan və onların

mənafeyini müdafiə edən həssas, humanist şair kimi qarşımızda canlanır. Öz dahi müəllimi və ustadı kimi Nizami Gəncəvinin əsərlərini davam etdirən Füzuli qəsidələrində birinci növbədə xalqın qayğısına qalan insanpərvər hökmdar, ədalətli ictimai quruluş haqqında düşünür. Hökmdarlara, valilərə yazdığı mədhiyyələrdə, əsasən, nəsihət xarakteri daşımaqla bərabər, bu ideya ilə ruhlanmaqdadır.

Məhəmməd Süleyman oğlu Füzuli 1494-cü ildə Bağdad yaxınlığındakı Kərbəla qəsəbəsində anadan olmuşdur. Bu dəqiq məlumat onun farsca divanındakı qitədə özünü əyani şəkildə büruzə verir: Ey Füzuli, məskənim çün Kərbəladır,
şeirimin Hörməti hər yerdə vardır, xəlq onun müştağıdır.
Nə qızıldır, nə gümüş, nə ləlü, nə mirvaridir,
Sadə torpaqdırsa, lakin Kərbəla torpağıdır.

Şairin mənsub olduğu ailə XV əsrin axırlarında Azərbaycandan İraqa köçmüş minlərlə ailələrdən biri idi. Atası Süleyman dövrünün qabaqcıl, ayıq şəxslərindən olduğundan oğlunun təlim-tərbiyəsinə xüsusi diqqət yetirir. Füzuli artıq məktəbdə oxuduğu vaxtlarda aşiqanə qəzəllər yazır. Yaşa dolduqca elmləri öyrənməyin zərurətini anlayır, humanitar və dəqiq elmləri öyrənir. Doğma Azərbaycan dilinə üstünlük verən ən mühüm əsərlərini bu dildə yazan şair üç dildə yüksək sənət nümunələri yaratmışdır. Onun ədəbi irsindən azərbaycanca, farsca “Divan”ı, azərbaycanca, farsca, ərəbcə qəsidələrdən ibarət “Divan”ı, “Leyli və Məcnun” aşiqanə romantik poeması, “Bəngü Badə”, “Həft cam”(Yeddi cam) alleqorik poemaları, “Şikayətnamə”də daxil olmaqla məktubları, “Səhhət və Mərəz”, “Rindü Zahid” adlı farsca yazılmış alleqorik, ictimai-fəlsəfi nəsr əsərləri, “Hədiqətüs-sühəda” kimi türkcə nəsr əsəri, “Hədisi-ərbəin” tərcüməsi, “Mətləül-etiqad” kimi ərəbcə yazılmış elmi-fəlsəfi əsəri daxildir. Bu əsərlər təkcə Azərbaycanın deyil, bütün Yaxın və Orta Şərqin dünyanı heyrətə salmağa qadir olan dühasının, ağlının, adi insan idrakının qavramayacağı duyğular

aləminin ölməzlik və əbədiyyət heykəlidir. Füzuli çoxcəhətli yaradıcılığında tamamilə şüurlu olaraq böyük bir üstünlüyü lirikaya vermişdir. Şairin bizə çatan əsərlərinin çoxunu lirika təşkil edir. Bu əlbəttə səbəbsiz deyildir. Böyük sənətkar öz bədii yaradıcılığının əsas məqsədini və mənasını məhəbbətin qüdrətini, insanın gözəlliyini, onun eşq və həyat iztirablarını tərənnüm etməkdə görmüşdür. Şair azərbaycanca divanının müqəddiməsində nəzmə məhəbbətindən və fitri şeir istedadından danışaraq bu istedadını məktəb mühitində elmi təhsili ilə birlikdə inkişaf edib ətirli güllər yetirdiyini söyləyir. Bu müqəddimədən məlum olur ki, Füzulinin ilham mənbəyi, onun şeirinin əsas mövzusu insan, günəş camallı gözəllər, həyat və məhəbbət olmuşdur. Şairin bu etirafı aydın göstərir ki, o, öz istedadının lirik xassəyə malik olduğunu, söz sənəti meydanına məhəbbət nəğməkarı kimi gəldiyini çox gözəl dərk etmişdir. Füzulinin lirik şeirləri çox gənc yaşlarından böyük şöhrət qazanmış, cürətlə geniş sahələrə yayılmışdır. Qəzəl Azərbaycan, ərəb və fars-tacik ədəbiyyatlarında meydana çıxdığı ilk dövrlərdə olduğu kimi Füzulinin yaşayıb yaratdığı XVI əsrdə də xalq şeiri və xalq musiqisi ilə üzvi sürətdə bağlı olmuşdur. Füzulinin ən böyük xidmətlərindən biri də söz sənətini xalqa çatdırmaqdır. Biz bilirik ki, şair məsnəviyə də, bədii nəsrə də, lirikanın qəsidə və sair növlərinə də öz yaradıcılığında əhəmiyyətli dərəcədə yer vermişdir. Lakin eyni zamanda o, çox gözəl bilirdi ki, xalqın rəğbətini, kütlələrin məhəbbətini qazanan, onun ürəyinə ən çox yol tapan şeir qəzəldir. Şairin fikrincə, başqa əsərlərdə rəmz, müəmma olduğu üçün onlar yalnız ziyalılar və alimlər tərəfindən yaxşı anlaşılır. Eşq-məhəbbət tərənnüm edən qəzəl isə gözəllərin ruhunu oxşayır. Füzulinin lirikası əsil məhəbbət və həyat poeziyasıdır. Onun ideya və bədii qüdrəti insan qəlbinin duyğu və həyəcanlarını, azadlıq və səadət həsrətini, insan gözəlliyini böyük sənətkarlıqla tərənnüm etməsdindədir. İstər ideya məzmunu, istərsə də forma etibarilə çox zəngin və rəngarəng olan Füzuli lirikasında insan

məhəbbətinin tərənnümü əsas yer tutur. Böyük sənətkarın əsərlərində məhəbbət dərin ictimai-bəşəri mahiyyət daşıyır. Füzulinin anlayışında məhəbbət insanın gözəlliyinə və kamalına pərəstiş, coşğun həyat sevgisi, insanpərvərlik, dostluq, vəfa və sədaqət deməkdr.

Füzulinin lirikasında insan, onun əzəmətli, parlaq camalı təbiətdə olan bütün varlıqlardan üstün, qiymətli göstərilmişdir. Şair öz əsərlərində bədii sözün qüdrəti ilə bir-birindən cazibəli, əlvan, gözəl surətləri yaratmışdır. Bir qəzəlində o yazır ki, qüdrətin çəkdiyi hər bir rəsm gözəldir, lakin sevgilinin rəsmi hamısından cazibəli çıxmışdır. Füzuli yaradıcılığında xəlqilik birinci növbədə onun lirikasının əsas mövzusundan biri və hətta birincisi olan məhəbbətin tərənnümündə daha qüvvətli təzahür edir. Şair “Məni candan usandırdı, cəfadan yar usanmazmı?”, “Pərişan xəlqi-aləm ahu əfqan etdiyimdəndir”, “Tutuşdu ğəm oduna şad gördüyüm könlüm”, “Yarəb, bəlayi-eşq ilə qıl aşina məni” və başqa insan məhəbbəti, sevgili həsrəti, eşq və ayrılıq iztirabları tərənnüm edən bir çox qəzəlləri xalqın dilində əsrlərcə ona görə əzbər olmuşdur ki, Füzuli bu şeirlərdə sadə insanların ruhuna, qəlbinə dərindən nüfuz edə bilmiş, onların canlı hisslərini, kədər və iztirablarını həyat həqiqəti kimi yüksək bədii ümumiləşdirmələrlə, əsil sənətkarlıq ehtirası ilə sadə, təbii və aydın formada ifadə etmişdir.

Tutuşdu qəm oduna şad gördüyüm könlüm,
Müqəyyəd oldu ol azad gördüyüm könlüm.
Diyari-hicrdə seyli-sitəmdən oldu xərab,
Fəzayi-eşqdə abad gördüyüm könlüm.

Məhəmməd Füzuli qəməri tarixlə 963-cü, miladi təqvimlə 1556-cı ildə Kərbəlada taun xəstəliyindən vəfat etmiş, orada da dəfn olunmuşdur. Füzulinin qəbir daşında məşhur beyti həkk olunmuşdur. “Nə yanar kimsə mənə atəşi-dildən özgə,
Nə açar kimsə qapım, badi-səbadan qeyri”.

## II. Yubiley tədbirlərinin keçirilməsi

Bu il Türk dünyasının sivilizasiyaya bəxş etdiyi ən böyük dühalardan biri, parlaq bədii istedada malik söz sənətkarı, ədəbiyyatımızın tarixində özünəməxsus layiqli yeri olan Məhəmməd Füzulinin 530 yaşı tamam olur. Yubiley münasibəti ilə respublikanın bütün mədəniyyət müəssisələrində, eyni zamanda kitabxanalarda yubiley tədbirlərinin keçirilməsi nəzərdə tutulmuşdur. Tədbiri keçirmək üçün kitabxana məktəblərlə, ali təhsil ocaqları ilə əməkdaşlıq etməlidir. İlk öncə kitabxanada Məhəmməd Füzulinin yubileyi ilə bağlı kitab sərgisinin keçirilməsi vacibdir. Sərgidə Füzulinin indiyə qədər çap olunmuş kitabları, onun haqqında şair və yazıçıların yazdığı əsərlər ilə yanaşı, dövrü mətbuatda da yer alan materialların nümayişi nəzərdə tutulmuşdur. Sərgiyə dövri mətbuatda çap olunan məqalələrin kartotekasını, şairə haqqında çəkilmiş sənədli və bədii filmlərin video-yazılarını, kaset və disklərini də əlavə etmək olar. Sərgi müxtəlif başlıqlar altında keçirilə bilər: ***“Bağdaddan doğan şeir günəşi”, “Füzuli dünyasından dünyaya baxış”, “Ədəbiyyatımızın böyük dostu”, “Klassik şeirimizin iftixarı”, “Şərqin dahisi”, “Şərqin ən böyük liriki”,”Türk ədəbiyyatının parlaq günəşi” , “Könüllər fatehi”, “Söz sənətinin mahir rəssamı”, “Könül mülkünün sultanı”***
İndi isə sərginin nümunəsini veririk.
Başlıq: Klassik şeirimizin iftixarı
Məhəmməd Füzulinin portreti.
Görkəmli şəxsiyyətlərin Məhəmməd Füzuli haqqında söylədikləri kəlamlar.
Dövrü mətbuatda çap olunan məqalələrin kartotekası.
Məhəmməd Füzulidən bəhs edən kitablarının nümayişi.
Şeir parçası.

## Görkəmli şəxsiyyətlərin Məhəmməd Füzuli haqqında söylədikləri fikirlər

Füzulinin humanizm və ümumbəşəri dəyərlərlə mayalanmış yaradıcılığı bütün bəşəriyyət üçün böyük mənəvi qidadır. Füzuli Azərbaycanın böyük milli sənətkarı olmaqla yanaşı, bütün müsəlman aləminin qəlb şairidir.

**Heydər Əliyev,**
*Azərbaycanın ümummilli lideri*

Məhəmməd Füzuli novator şairdir, çünki o özündən əvvəlki şairlərdən və öz dövrünün şairlərindən heç kimi təqlid etməyib. Əksinə, M. Füzulidən sonra gələn şairlərin çoxusu, ələlxüsus Azərbaycan şairləri Füzuliyə peyrövlik edib və Füzulinin nüfuzu xeyli müddət bizim Azərbaycan şairlərinin asari – qələmiyyələrində müşahidə olunacaqdır. Türk dilinə rövnəq verən və onu xaru-xaşakdan təmizləyib bir göyçək və səfalü çəmənə bənzədən Füzuli olubdur.

**Firidun bəy Köçərli,**
*Azərbaycan ədəbiyyat tarixçiliyi elminin banisi*

Füzuli Azərbaycan ədəbiyyatını fars və ərəb girdablarından dartıb çıxartmış və dörd yanını sarmış boşluq içərisində yeni doğulmuş ədəbiyyatı çiyinlərinə almış və yenilməz addımlarla ta yüksəklərə qaldırıb parlaq bir sentimentalizm ədəbiyyatı olmaq üzrə vaxtına təqdim etmişdir. Füzuli öz dühası ilə Azərbaycana parlaq klassik bir ədəbiyyat verdi.

**M. F. Axundov,**
*ictimai xadim*

Türk dünyasının sivilizasiyaya bəxş etdiyi ən böyük bədii dühalardan biri Məhəmməd Füzulidir. Azərbaycan , Şərq və dünya elmi-nəzəri fikri tarixində “könüllər fatehi”, “qəlb şairi”, “eşq və məhəbbət nəğməkarı” kimi etiraf olunan Füzulinin poeziyası əslində xalis elmi dəyərlərə əsaslanana intelektual poeziyadır.

**Yaşar Qarayev**
*filologiya elmləri doktoru*

Yalnız Azərbaycanın deyil, bütün türklüyün dahi şairlərindən, Əbü şüəra künyəsini daşıyan Füzulinin dərin bir nüfuzu, böyük bir mürşüdlüyü vardır. Füzuli Şərqin ən böyük liriki, Türk ədəbiyyatının parlaq günəşidir.

**M.Ə.Rəsulzadə,**
*görkəmli filosof və dövlət xadimi*

Dahi şairimiz Füzuli Şərqdən doğan günəşə, ondan sonra yetişən şairlər isə Füzuli günəşindən nur alan səyyarələrə bənzəyir. Görünür, elə bu səbəbdəndir ki, bu gün də dünya poeziyasında Füzuli öz mərtəbəsində, öz şöhrət taxtında bərqərardır.

**Gibb**
*İngilis şərqşünası*

Ədəbiyyatımızda Füzuli lirikası yüksəkliyinə qalxa bilən ikinci bir şair tanımırıq. Günəş istisinə ehtiyacı olan insanların mənəvi istisi, kolorisi və ehtiyacını ödəyən, onları sözün qüdrəti ilə saflaşdıran, yaşadan dühalar sırasında M.Füzulinin də adının çəkilməsi əbəs deyil.

**Mir Cəlal Paşayev,**
*Yazıçı*

Məhəmməd Füzuli dahilik rütbeyi-aliüali ilə təltif olunanlardan birisidir. Kürklü, çuxalı sevimli babamız Homer, Firdovsi, Molyer, Şekspir, Nəvai kimi insaniyyət yaşadıqca yaşayacaqlar.

**Cabbar Əfəndizadə,**
*ədəbiyyatşünas*

Füzuli böyük dahidirki, aşıb-daşıb gələn sellərin önünü aldı, ruhumuzu oxşadı, qonşulara tanıtdırdı, qabiliyyətimizi göstərdi, ədəbiyyatımızı diriltdi.

**Salman Mumtaz,**
*ədəbiyyatşünas*

O zülmət səltənətində, yalnız qüvvətin hakim olduğu yerdə, nə söz, nə əql, nə də zəka və istedadın heç bir qiymət və əhəmiyyəti olmadığını bildiyi halda Füzuli susmadı. Duyduğunu, gördüyünü söylədi. Qaba və cahil cəmiyyəti incə-incə iylədi. Çirkinliklərini, qabalıqlarını üzlərinə oxudu.

**Abdulla Şaiq,**
*şair*

Füzuli diridir, Füzuli şeir dövrünün hazırladığı yeniliyə məğlub olmaz və sarsılmaz bir qüvvədir. Onun məktəbi - ədəbi irsi bizim şairlərin başına girib, bütün əsərlərində bir Füzuli ruhu görünməkdədir.

**Cəlil Məmmədquluzadə,**
*yazıçı, dramaturq*

XV əsrin sonu XVI əsrin əvvəlləri klassik Azərbaycan ədəbiyyatının çiçəklənmə mərhələsi, qızıl əsridir. Füzuli həmin epoxanın dahi nümayəndəsidir və bu vaxta qədər lirikasının sənətkarlığı baxımından əlçatmaz olaraq qalır.

**Ə.Nazim,**
*tənqidçi*

Füzuli zəmanəsinin ən qabaqcıl mədəni adamı idi. Fəlsəfə və ictimai elmlər sahəsindəki bütün nailiyyətlər ona məlim idi. Onun hər bir obrazında geniş həyati bilik, psixologiya, təbiət hadisələrinin dərin təhlili meydana çıxır.

**M.Quliyev,**
*tənqidçi*

**Sərgi:**




































https://drive.google.com/file/d/1pEITj0B1T3-TsR33gSX9W5FDJujMiN-8/view

Kitabxanada Məhəmməd Füzuli irsinin oxucular arasında təbliği üçün **şeir müsabiqəsi**nin keçirilməsi maraqlı olar. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Çünki, bu tədbir uşaqlarda şeiri daha dərindən duymaq, başa düşmək haqqında təssəvvür oyadır. Müsabiqə şairin Azərbaycan dilində olan lirik irsini əhatə edir. Müsabiqədən əvvəl kitabxanaçı oxucularla söhbət keçirir və bildirir ki, dahi şairin çoxcəhətli zəngin yaradıcılığında lirika mühüm yer tutur. Füzuli klassik şerin, demək olar ki, bütün növlərində əsərlər yazmış,

fəlsəfi-ictimai tutumuyla yanaşı poetik dəyəri ilə də ölməz sənət nümunələrinin müəllifi kimi tanınmışdır. Şairin xüsusən ana dilində yaratmış olduğu "Divan" türk dili anlaşılan ölkələrdə yayılmış, məhəbbətlə oxunaraq türk xalqlarının ədəbiyyatlarına qüvvətli təsir göstərmişdir. Füzuli özünün qəlb aləmindən xəbər verən lirik şeirləri, xüsusilə qəzəllərində saf, təmiz bir qəlbin incə, kövrək duyğuları, ülvi bir məhəbbətin həyəcanlarını ifadə edir, oxucusunu bədii sözün qüdrətilə sehirləyib düşünməyə, öz mənliyini, kainatı, həyat gözəlliklərini dərk etməyə çağrır, dostluğa, məhəbbətə səsləyir. Füzuli bütün dünyaya aşiq nəzəri ilə baxır, məhəbbəti kainatın yaranmasının əsası sanır. Səhərin açılmasında, günəşin doğmasında, baharın gəlişində, bülbülün naləsində bir məhəbbət duyur, bütün bunları məhəbbət dili ilə izah edir. Füzuli qəzəlləri həm də fəlsəfi-irfani səciyyə daşıyır. İlahi bir ənginlik duyulan bu qəzəllərdə əhli-həqqin Tanrıya məhəbbəti də zaman-zaman öz əksini tapır. Bütövlükdə isə ümumi ruhu ilə Füzuli şerində məhəbbət insanları bir-birinə yaxınlaşdıran, dostluq, mehribanlıq, fədakarlıq, səmimiyyət yaradan müqəddəs bir qüvvədir. O, insana gözəlliyi duymaq, dərk etməyi öyrədir, daxilən təmizliyə, şəxsi varlığından belə keçməyə, qorxmazlığa sövq edir. Bu cəhət Füzuli qəzəllərində o qədər bədii, səmimi və aydın ifadə olunmuşdur ki, xalq hikməti və xalq zəkasının qüdrəti ilə aşılanmış bu könül nəğmələrini oxuyan və ya dinləyən hər kəs qəlbində bir saflıq, xeyirxahlıq, həyata məhəbbət, insana və onun maddi və mənəvi gözəlliyinə hörmət duyğularının qüvvətləndiyini hiss edir…

Orta yaş qrup oxucular arasında Məhəmməd Füzulinin yubileyi münasibətilə sual - cavab gecələri, testlər və ya ədəbi viktorinalar təşkil oluna bilər. Sual-cavab gecəsi kitabxanaçı tərəfindən təşkil olunur və oxuculara suallar təqdim olunur.

Kitabxanalarda yuxarı sinif şagirdlərinin iştirakı ilə "***M.Füzulinin sözə verdiyi qiymət və onun yaradıcılığında qəzəllərin yeri"*** adlı oxucular konfransı da təşkil etmək mümkündür. Konfransdan öncə onun proqramı tərtib olunmalı, konfransın keçiriləcəyi dəqiq vaxt müəyyən olunmalıdır. Proqramda konfransda çıxış edəcək qonaqların, ədəbiyyatşünasların və şagirdlərin adları, onların çıxış edəcəkləri mövzular, tədbirin keçiriləcəyi məkan və zaman qeyd olunur. Konfrans zamanı Füzuli yaradıcılığına yaxından bələd olan jurnalist, yazıçı və şairlərin çıxışları dinlənilir.

Oxucu konfransının planını sizə təqdim edirik:

1. Giriş hissə (M.Füzulinin həyat və yaradıcılığı haqqında məruzə)

2. M.Füzulinin yaradıcılığında qəzəllərin yeri (bu mövzu haqqında kitabxana rəhbərliyinin, ədəbiyyatşünas, yazıçı və şairlərin çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Füzulinin müxtəlif əsərləri ətrafında müzakirələri. Şairin əsərlərinə yazılmış mahnılar dinlənilir, şeirləri, qəzəlləri söylənilir.

4. Konfransın yekunu.

*Konfransın əvvəlində kitabxanaçı M.Füzulinin həyat və yaradıcılığı haqqında ətraflı məlumat verdikdən sonra, "M.Füzulinin sözə verdiyi qiymət və onun yaradıcılığında qəzəllərin yeri" mövzusunda söz iştirakçılara verilir.*

**I İştirakçı:**Füzuli qəzəllərini mövzu və məzmununa görə, dörd yerə bölmək olar: 1. aşiqkanə qəzəllər, 2. ictimai-fəlsəfi qəzəllər, 3. "təsviri" qəzəllər, 4. minacat, nət ruhunda olan "rəsmi" qəzəllər. Aşiqanə qəzəllərin özü də təsnifləşdirilə bilər. Burada aşiq dilindən olan əsərlər daha çoxdur. Aşiqin məşuqə qarşısında öz məhəbbətini izhar etməsi, gözəli vəsf etməsi, eşq-sevda yolunun çətinliklərini, bəla və müsibətlərini sayması, aşiqin öz taleyindən, bəxtindən şikayəti bu səpkidə olan əsərlərdir.

**II İştirakçı:** Şair qəzəllərini əsasən gəncliyində, yaradıcılığının ilk dövründə yazmış və bununla da şairliyə başlamışdır. "Leyli və Məcnun" kimi böyük poeması, "Səhhət və Mərəz", "Bəngü Badə" kimi alleqorik, "Mətləül-etiqad" kimi fəlsəfi əsərlər yaradan, parlaq qəsidələr, rəcəzlər müəllifi olan Füzuli hər şeydən artıq lirikası ilə məşhurdur. Nədən yazır, nə formada yazır yazsın, sətirlərində atəşin qəlbi görünür. Bütün Yaxın Şərqdə, epos dedikdə Firdovsi, fəlsəfi poema dedikdə Nizami, rübai dedikdə Xəyyam, didaktika dedikdə Sədi xatırlandığı kimi, qəzəl dedikdə Füzuli yada gəlir. Eşq-məhəbbət mövzusunda həcmcə xırda, mənaca böyük əsərlər yaradan şairin şirin, məlahətli sözləri yalnız Azərbaycan dili bilənləri deyil, söz sənətini başa düşən bütün oxucuları heyran qoyur.
**III İştirakçı:** Şairin qəzəl janrına xüsusi bir məhəbbəti, ilham qüdrəti vardır. Bu janrın geniş yayıldığına, çətinliyinə, hünər tələb etməsinə, ədəb əhlinə tez çatmasına, kütləviliynə və nəhayət sevgi janrı olmasına görə başqa janrlardan üstün tutur:

Qıl təfaxürkim, sənin həm var mənim tək aşiqin,
Leylinin Məcnunu, Şirinin əgər Fərhadı var!

Şair eşq, sevda aləmində özünü Fərhaddan və Məcnundan yüksək tutur. Ona görə də sevgilisinə "fəxr et, -deyir,-sənin mənim kimi aşiqin olduğu üçün Leylidən də, Şirindən də ucasan, məsudsan". Göründüyü kimi, Füzuli qəzəllərində eşq konkret həyati zəminədə, aşiqlə məşuqə münasibətində, sevgi həyatında əks olunmuşdur.
**Ədəbiyyatşünas:**Şair şeirin, qəzəlin qədrini bilməyənləri mərifətdən uzaq və cahil adlandırır. Füzuli şeir janrları içərisində ən üstün tutduğu qəzəli "hünər bağının gülü" adlandırır. Qəzəli belə yüksək qiymətləndirməsi, şairin lirikanı, qəlb şeirini, insanın mənəvi aləmini tərənnüm edən şeiri daha artıq sevdiyindəndlr:

Qəzəldir səfabəxşi-əhli-nəzər,
Qəzəldir güll-bustani-hünər.
Gəzali-ğəzəl seydi asan deyil,
Gəzəl münkiri-əhli-irfan deyil.
Gəzəl bildirir şairin qüdrətin,
Gəzəl artırır nazimin şöhrətin.
Könül, gərçi əşarə çox rəsm var,
Fəzəl rəsmin et cümlədən ixtiyar.
Ki, hər məhfilin ziynətdir ğəzəl,
Xürədməndlər sənətidir ğəzəl.

Qəzəl yazmaq, lirik şeir yazmaq, insan qəlbinin daxili aləminə vaqif olmaq və onun incəliklərini duyub ifadə etmək çox çətindir. "Gəzali-ğəzəl seydi asan deyil!" Şairin şairliyi də, Füzuli dediyi kimi, ancaq əsl insan hiss və həyəcanlarının ifadəsində bilinir. Bu məharətə malik olmayanlar, Füzulinin fikri ncə, şeir sənətindən uzaqdırlar. Füzulinin dörd yüz il bundan əvvəl söylədiyi bu fikirlər, bu gün də öz qüvvəsini tam mənasilə saxlamaqdır. Füzuli öz talantına, öz qüvvəsinə güvənən, qələminin qüdrətilə məğrur şairlərdəndir. O, ən çətin saydığı qəzəl formasının ən yaxşı nümunələrini yaratmaq vəzifəsini öhdəsinə götürmüşdür və yaratmışdır. O, öz könlünə-qələminə xitabən deyir; "Ğəzəl rəsmin et cümlədən ixtiyar!" Qəzəl seç, çünki qəzəl çətin olmaqla bərabər yüksək şeirdir, qəlb şeiridir. Gördüyümüz kimi, Füzuli şeirdən bilik, məlumat, incəlik, zəriflik, xəlqilik, sadəlik, hiss-həyəcan üstünlüyü tələb edir. Fizulinin fəlsəfi qəzəlləri də vardır. Bu qəzəllər yalnız şairin ictimai qənaətini, həyata baxışını, dünyagörüşünü verməklə qalmır. Bu qəzəllərin özündə də şairin çəkdiyi əzablar, ictimai ağrılar bariz bir şəkildə əks olunur. Burada şair qüvvətli bir ümumiləşdirmə bacarığı ilə dövrün bütün çirkin və ağır qanun qaydalarını, cəmiyyət qurluşunun xalqa qarşı, düşünən başlara və duyan qəlblərə qarşı durduğunu göstərmişdi. Fizuli

sənəti isə şer tariximizdə uca bir dağ kimi dayanmısdır. Oxucu da, sənətkarlar da bu dağın tamaşasından doymurlar. Oradan gələn, bahar təravəti gətirən sağlam bədiiyyat havası həmişə hisslərimizi oxşayır.

**IV İştirakçı:**Füzulinin qüvvətli, təmiz və saf, həyat, həqiqət duyğusu, yüksək bədiİ zövqü heç bir zaman onu aldatmamışdır. Şairin lirik əsərlərindən olan qitələr, mürəbbələr, rübailər, beytlər, həm sənət, həm məzmun etibarilə maraqlıdır. Biz burada şairin ictimai məsələlərə, həyat hadisələrinə, cəmiyyət quruluşuna, hətta ayrı-ayrı peşə, vəzifə sahiblərinə aid qısa, aydın və aforizm şəklində deyilmiş fikirlərinə rast gəlirik. Füzulinin qazi, vaiz, vəzir, xacə (ağa), şah, sufi, paxıl, cahil, məğrur, zalım, əyyaş, yalançı və sairə haqqında verdiyi beytlərin hər biri bir aforizmdir. Füzuli bu parçalarda mənfəətpərəstliyin, ömrü var-dövlət yolunda sərf etməyin insanı həqiqətdən uzaqlaşdırdığını, "əhliqürur" etdiyini göstərir.

Çox təfaxür qılma cəmi-malə sən ey xacə kim,
Simü zər cəmiyyəti əhli-ğümr eylər səni!
Barigahi-qürbdən cəmiyyəti-əsbabü mal,
Hər nə miqdar olsa, ol miqdar dur eylər səni!
Gərçi nemət çox, kifayətdir, təcavüz qılma kim,
İmtila, bari-bədəndən bihüzur eylər səni.

*Eyni fikri aşağıdakı qitədə daha gozəl ifadə olunmuşdur:*

Ey ki, əndişeyi-mal ilə sərasimə olub.
Dünü gün dəhrdə aşüftə keçər əhvalın.
Cəmi-mal eylədiyin rahət üçündür,
əmma Rahətin əksik olur, hər necə artar malın.
Mal çox yığma, həzər eylə əzabından kiın,
Rənci artar ağır olduqca yükü həmmalın.

**V İştirakçı:** Şair, məşhur qitələrindən birində şah ilə şairi, şeirlə rütbəni, səltənət ilə qabiliyyəti qarşılaşdırır, müqayisə edir. Göstərir ki, şairin şərəfi və cəlalı şahınkından artıqdır, yüksəkdir. Nə üçün? Çünki şah rüşvət verir, qoşun yığır, qan tökür, yüz fitnəfəsad ilə ölkə tutur. Tutduğu ölkə də həmişəlik olmur. Bir hadisə baş verən kimi cah-cəlalı dağılır, ölkə əldən gedir. Həm qoşun, həm şah məhv olur. Ancaq söz sultanlığının büsatı başqadır:

Gör nə sultanəm məni dərviş kim, feyzi-süxən,
Eyləmiş iqbalımı asari-nüsrət məzhəri!

Bu şeirdə şairin, sənətkarın mənəvi yüksəkliyi aydın ifadə olunur. Füzuli insanın mənəvi aləminin yüksək tutduğu kimi ömrünü də faktik, fiziki ömürdən uca və üstün tutur. Onun fikrincə, insan həyata yeyib-içmək üçün gəlməmişdir. Belə bir həyat heyvani həyat olardı. İnsan ona görə insandır ki, böyük hisslər, fikirlər yaradır.

Necə bir nəfs təmənnası ilə,
Yeməgü içmək ola dilxahın...
Məbədin mətbəx ola şamü səhər,
Müstərah ola ziyarətgahın...
Bunun üçünmü olubsan məxluq?
Bumudur əmri sənə allahın?

**VI İştirakçı:**Füzuli əsl, həqiqi ömrü mənəvi həyatda görür. O, özünü "fəqiri-padşah, gədayi-möhtəşəm" adlandırır, mənəvi ehtişam, elm və sənət səltənəti ilə fəxr edir. Bu yolda sərf olunmayan vaxtı hədər sayır. Zəmanəsinin mənfəətpərəst və alçaq təbiətli adamlarına da qismən buna görə ürəkdən nifrət bəsləyir. Üzünü qazilərə, vaizlərə, xacələrə tutub nəsihət ruhunda ibrətli sözlər, beytlər deyir. Lakin bu nəsihətlərin

çoxlarının qulağına girmədiyini bildiyinə, dərdləşməyə münasib yoldaşlar, müsahiblər tapa bilmədiyinə təəssüf edir:

Yox dəhrdə bir müvafiqi-təb hərif
Kim, söhbəti-dilgüşa ola, təbi zərif.
Fəryad ki, nacins müsahibələr ilə
Bifaidə zaye oldu övqati-şərif!

Bu satirik rübaidə şairin dərin həsrəti də, nifrəti də ifadə olunmuşdur.

**VII İştirakçı:**Füzuli qəzəllərində yüksək xüsusiyyətlərdən biri də bu əsərlərin həyatı ətraflı ifadəsidir. Burada mey-məclis, aşiq-məşuq, kənd, bağ-bustan, ağalıq-qulluq əlaqələrindən başqa, tamam yeni ictimai quruluşun, yaranmaqda olan şəhəri təsvir edən surətlərin sistem halında verilməsidir. Ticarət əlaqələri, qazanc, pul, bazarı sevda, əsnaf-tacir, memar, nəqqaş, həkim və sairə kimi peşəkarların həyatından, bu zümrənin münasibətlərindən şair geniş bəhs etmişdir. O zaman şairin yaşadığı Bağdad şəhəri Şərqin ən böyük, inkişaf etmiş şəhəri idi. Şairin saf və səmimi intihabları təbii olaraq lirik əsərlərində əks olunmuşdur.

**VIII İştirakçı:** Ümumiyyətlə, Füzulidə eşq məfhumu şəxsiyyətin, hissin, fikrin, zövqun azadlığını əhatə edir. Hətta bu tələbini şair başqa əsərlərində, məsələn, "Leyli və Məcnun" poemasında o dərəcəyə çatdırır ki, qadınların alınıb satılmasına, onlar ilə qul kimi rəftar edilməsinə qarşı açıq çıxış edir. Leylinin öz ixtiyarsızlığını deyib alovlu ah ilə üsyan ruhunda danışmasını yadımıza salaq. Leyli, Məcnuna yazdığı məktubunda öz ağır vəziyyətini belə təsvir edir:

Mən gövhərəm özgələr xiridar.
Məndə deyil ixtiyari-bazar.
Dövran ki, məni məzadə saldı,
Bilməm kim idi satan, kim aldı.
Olsaydı mənim bir ixtiyarım,
Olmaz idi səndən özgə yarım.

**IX İştirakçı:**Bu sözlərdə yalnız Leylinin, bu talesiz ərəb qızını yox, bütün Şərq qadınlarının, bütün məhkum qadınların acı şikayəti eşidilməkdədir. Füzuli, bütün lirik əsərlərində, məhəbbət mövzusunda yazdıqlarının hamısında bu cəmiyyət quruluşuna nifrət yağdırır. İnsana, duyan, düşünən hər bir şəxsə mənəvi sərbəstlik, hiss, fikir azadlığı tələb edir. Məhkumluq həyatının insan üçün böyük bir fəlakət olduğunu söyləyir. Təsadüfi deyil ki, Füzulidən sonra daha da şöhrət tapan qəzəl janrı yüzlərcə şairlər tərəfindən davam etdirilir. İstər Azərbaycan və istərsə də Yaxın Şərqdə Füzulini izləyən, onun yolu ilə getmək istəyən şairlərin sayı-hesabı yoxdur. Füzuli elə bir sənət zirvəsi idi ki, ona çatmaq heç bir şairə qismət olmamışdır. Füzuli sənətinin yüksəkliyini, yalnız şairin dühası, alimliyi, həyatı bilməsi ilə izah etmək kifayət deyil, Füzulinin yüksək seir mədəniyətini də mütləq nəzərə almaq lazımdır.

**X İştiralçı:** Füzuli bütün mənzum əsərlərini, eləcə də lirik əsərlərini əruz vəznində yazmışdır. Füzuli yüksək şeir mədəniyyətinə malik bir sənətkar olduğu və şair üçün bir zərurət olan əruz vəznini ərəb, fars şairlərindən az bilmədiyi üçün heç bir yerdə ilhamını zorlamamışdır. Azərbaycan dilində əruz vəzni ilə də olsa, "nəzmi nazik" yaratmaq uğrunda fədakarlığa getmiş, böyük xarüqələr yaratmışdır. Füzuli müasir əruzun məşhur bəhrlərinin hamısını sınamışdır. Füzuli şeirinin gözəl xüsusiyətlərindən biri də mükəmməl, az sözlü, dolğun olmasıdır.

**XI İştirakçı:** Füzuli lirikdir, qəlb şairidir. Qəzəl janrı Azərbaycan ədəbiyyatında Füzuliyə qədər uzun bir dövr keçmisdir. Böyük Nizaminin, Xaqaninin, Nəsiminin, Xətainin qəzəlləri bu sahədə görkəmli nümunələrdir. Ancaq nə Füzuliyə qədərki şairlərimizdən, nə də ondan sonra gələn Vaqif, Vidadi, Zakir, Seyid Əzim, Bahar Şirvani, Hadi və başqa şairlərdən heç kəs Füzuli səviyyəsində, Füzuli qədər incəlikldə, yüksək bədii keyfiyyətdə qəzəl yazmamışdır. Füzuli zamanının eyni zamanda

böyük alimi idi. Həyatı və müasir mədəniyyəti mükəmməl bilirdi. Onun müstəsna həssaslığı, dəqiq müşahidə bacarığı, hər bir hadisənin mahiyyətini qavramağa, obyekti mükəmməl əhatə etməyə imkan verir. Bu cəhətdəndir ki, o, eyni bir əşya, bir söz əsasında bir-birindən fərqli, müxtəlif surətlər, səhnələr yaradır.
**Ədəbiyyatşünas :** Füzuli lirikasının sənətkarlıq və bədii xüsusiyyətlərinin öyrənilməsi və izahı, bizim demək olar ki, bütün klassik şeirimizin bədii sanballarını təyin məsələsidir. Çünki Şərq poetikasında elə forma, üsul, janr, qayda yoxdur ki, Füzuli ona toxunmamış, onun parlaq nümunəsini yaratmamış, öz münasibətini birləşdirmiş olsun. Böyük şair özündən əvvəlki bədii irsə kor-koranə, passiv münasibət bəsləməmişdir.
Azərbaycan şerinin ölməz nümunələrini yaradaraq türk dilinin nəyə qadir olduğunu göstərən, beləcə tarix içində mənəvi mənliyimizə – dilimizin, mənəviyyatımızın əbədi və canlı heykəlinə çevrilən Füzuli eyni zamanda ərəb və fars dillərinə biganə qalmamış, bu dillərdə də ərəb, fars şairlərinin yaratdığı və nümunələr səviyyəsində dayanan müxtəlif janrlı əsərlər meydana gətirmişdir. Ana dilində bağladığı "Divan" həcmində həmçinin farsca "Divan" yazan şair özünün qəlb aləmindən xəbər verən bu lirik şeirlərdə də oxucusunu bədii sözün qüdrətilə sehrləyib düşünməyə, öz mənliyini, varlıq aləmini, həyat gözəlliklərini dərk etməyə çağırır. Xalq hikməti və xalq zəkasının qüdrətilə aşılanmış bu son dərəcə bədii, səmimi, misilsiz könül nəğmələrini oxuyan və ya dinləyən hər kəs ürəyində bir saflıq, xeyirxahlıq, həyata məhəbbət, insana ehtiram duyğularının qüvvətləndiyini hiss edir. Burada aşiq Füzuli ilə mütəfəkkir Füzuli yenə bir vəhdət halındadır. Böyük fikirlər burada yenə Füzulinin aşiqanə deyilmiş sözlərindədir...
Sözə xor baxmaq olmaz, hər bir söz
Ərşdəndir gəlib hədiyyə bizə,
Qəlbimiz meyl edir həmişə ona,
Çünki söz nazil oldu qəlbimizə.

Söz ilahi qüdrətin yaratdığı bir nemətdir, “ərşdən yerə enmişdir”. Onun şeir, söz sənəti haqqındakı təsəvvürü olduqca genişdir. O, şeiri həyatın, varlığın ən yüksək formada şairanə inkası kimi alır. Söz-gözəl, bədii, hakimanə söz, Füzuli şeirinin canıdır. Füzuli şeirin, sənətin yüksəkliyindən danışdığı zaman sənətkarın qarşısında mühüm vəzifələr durduğunu da qeyd edir. Füzulinin ümumiyyətlə bədiilik tələbi və meyarı çox yüksəkdir. Onun seir, söz sənəti haqqındakı təsəvvürü olduqca genişdir. O, şeiri həyatın, varlığın ən yüksək formada şairanə inikası kimi alır. Bu haqda olan fikirlərini, sözüın əhəmiyyətini qeydlə başlayır. Söz - özəl, bədii, həkimanə söz, Füzuli şeirinin canıdır və qanıdır:

Can sözdür əgər bilirsə insan,
Sözdür ki, deyirlər özgədir can.

Füzulinin "Söz" rədifli və sözün mənşə, məna və əhəmiyyətini izah edən xüsusi bir qəzəli də vardır. Həmin qəzəli eynilə misal gətirməyi lazım bllirik;

Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz,
Bu nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.
Artıran söz qədrini sidq ilə qədrin artırır,
Kim, nə miqdar olsa əhlin eylər ol miqdar söz.
Ver sözə əhya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyğudan bidar söz.
Bir nigari-ənbərinxətdir könüllər almağa,
Göstərir hərdən niqabi-ğeybdən ruxsar söz.
Xazini-gəncineyi-əsrardır hərdəm çəkər,
Rişteyi-izharə min-min gövhəri əsrar söz,
Olmayan ğəvvasi-bəhri-mərifət arif deyil
Kim, sədəf tərkibi-təndir, lölöi-şəhvar söz.
Gər çox istərsən, Füzuli, izzətin, az et sözü,
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz .

İnsanın sirrini hər kəsə açan sözdür. Hər an yoxdan var olan sözdür. (1)
Sözün qiymətini bilən, ona dəyər verən insan özünə dəyər vermiş olur. Söz hansı dəyərdə olsa, sahibini də o dəyərdə edər.İnsana onun danışdığı sözə görə qiymət verilir. (2)

Sən sözü canlandır, dirilt ki, səni də ölüm yuxusu tutanda o səni diriltsin. Qiymətli sözlər danış ki, öləndən sonra sözlərin hər dəfə xatırlandıqca dirilmiş olasan. (3)

Mənalı söz könüllər alan gözəl kimidir. O da hərdən örtüyünü açıb üzünü göstərər və könülləri şad edər. (4)

Söz sirlər xəzinəsinin xəzinədarıdır, qoruyucusudur. Hər zaman sirli gövhərlərini sapa düzüb aşkar edər. (5)

Söz tərkibi əla, sahanə incilərdən ibarət olan mərifət dənizdir. O dənizdə üzməyi bacarmayan arif deyil. (6)

Əgər sözün hörmətli, dəyərli olmasını istəyirsənsə, miqdarini az et, çünki çox danışmaq çox insanı hörmətdən salıb. (7)

Burada şair sözün ölməzliyini, yaxşı əsərin dünya durduqca yaşayacağını və sənətkarını yaşadacağını aydın deyir. Qiymətli söz, sahibinin qədrini artırdığı kimi, uzun və mənasız söz sahibini hörmətdən salar. Bu qəzəl fikir etibarilə böyük Nizaminin söz haqqında dediklərinə çox yaxındır. Nizami də "İsgəndərnamə" əsərində sözə can deyir: "Söz ağızda dürrdür, yerə düşsə qırılar. Söz candır, can dərmanıdır. Onu elə adama de ki, cəvahir kimi qulağından assın. Qələm hərəkətə başladığı

zaman dünyanın gözünü işıqlandırdı. Söz bizim qəsrimiz, eyvanımızdır. Fikirlərin əvvəli, duyğularm sonu sözdür". Hər iki şairin bu fikirləri şübhəsiz ki, hər şeydən əvvəl sənət "söz"ünə, söz sənətkarlığına, yaradıcılığa aiddir. Onlar bu tələbi dərin bir inamla dərk etmiş, öz yaradıcılıqları, dahi əsərləri ilə həyata keçirmişlər. Füzuliyə görə, bədii əsərdə söz adi, sadə mənasından çox-çox yüksək məna gözəlliyinə və təsir qüdrətinə malik olmalıdır.

Kitabxanada  klassik Azərbaycan ədəbiyyatının ən qüdrətli nümayəndələrindən biri olan Məhəmməd Füzulidən bəhs edən **ədəbiyyatların icmalı**nı  keçirmək, bu tarixi şəxsiyyətin yaradıcılığından bəhs edən diskusiyalar da təşkil etmək olar.




Məhəmməd Füzulinin "Leyli və Məcnun" kitabının icmalını sizə təqdim edirik.

**Kitabxanaçı:** Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatının dünya şöhrəti qazanmış söz ustadlanndandır. Füzuli öz yaradıcılığında bütün keçmiş ədəbi irsin nailiyyət və zənginliklərini inkişaf etdirmiş və öz dühası ilə Azərbaycanda lirik şeir sənətinin ən yüksək nümunələrini yaratmışdır. Füzulinin lirikası, hər şeydən əvvəl, sevgi, məhəbbət lirikası, aşiqanə lirikadır. Bəli, Azərbaycan ədəbiyyatında lirikanın, doğma ana dilində yaranmış əsl lirik seirin böyük banisi və ölməz dahisi Məhəmməd Füzulidir.  Lirik şeirin bənzərsiz nümunələrini yaradan M.Füzuli qələminin gücünü, həmçinin epik janrda sınamışdır. Onun bu janrda yazdığı "Leyli və Məcnun" poeması epik şeirimizin ən gözəl nümunələrindən hesab olunur. Sevimli bəstəkarımız Ü.Hacıbəyov 1908-ci ildə bu poema əsasında özünün "Leyli və Məcnun" operasını yazmışdır.

M.Füzuli “Leyli və Məcnun” lirik-epik poemasında uşaq və gənclərin tərbiyəsi məsələlərinə çox ciddi yanaşmışdır. Şair Leyli və Qeysin (Məcnunun) uşaqlıq həyatını, məktəb illərini təsvir edir, onları ideallaşdırır, yeni nəslin tərbiyə olunmasında bir örnəyə çevirir. Leyli və Qeysin azadlıq arzusu ilə çırpınması, insani keyfiyyətlərə malik olması, vəfa və sədaqət rəmzinə çevrilməsi, dövlərdən asılı olmayaraq, bütün uşaq və gənclər üçün bir nümunə rolunu oynamışdır. Füzulinin dahiyanə sənət əsəri olan "Leyli və Məcnun"unda sairin dühası daha parlaq surətdə görünür. Bu, belə də olmalıdır, çünki Füzuli hər şeydən əvvəl qəlb şairidir. Özü də dəfələrlə qeyd edir ki, məndən tərif, tənqid şeiri istəməyin, məhəbbət şeiri istəyin:

Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm,
Mən aşiqəm, həmişə sözum aşiqanədir .

O, şeirə hər şeydən əvvəl, həyatının məhsulu, qəlb xəzinəsinin gövhəri" kimi baxır. Füzulinin düşündüyü mənada isə əsl insani hiss olan məhəbbətin mənası, məzmunu çox zəngin və genisdir. Füzuli o şairlərdəndir ki, ən kiçik hadisəyə, adi, insana əhəmiyyətsiz görünən və ya heç görünməyən bir təsirə qığılcım, hətta ildırım ilə cavab verər.

Müəllif “Leyli və Məcnun” əsərini yazmaqla heç də yalnız yeni bir məhəbbət poeması yaratmaq istəməmişdir. Yaradıcılığının zirvəsi olan "Leyli və Məcnun" poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Nizami Gəncəvinin ilk dəfə yazılı ədəbiyyata gətirdiyi "Leyli və Məcnun" mövzusunun bir çox türk, fars, hind, özbək və tacik şairləri tərəfindən qələmə alınmasına baxmayaraq, Füzulinin ana dilində yaratdığı əsər orijinallığı ilə bu mövzuda əvvəllər yazılmış poemalardan seçilir. Poemanın mövzusu bütün şərq aləmində əsl eşq fədailəri kimi qəbul olunan Leyli və Məcnun haqqında geniş yayılmış bir məhəbbət əfsanəsindən götürülmüşdür. Bu mövzunu yazılı ədəbiyyata ilk dəfə başqa bir dahi Azərbaycan şairi N.Gəncəvi

gətirmişdir. Lakin M.Füzulinin “Leyli ve Məcnun” poemasının əsasında Nizaminin eyniadlı əsəri dayansa da, o, bir sıra epizodları dəyişmiş, yeni səhnələr düşünmüş, həmçinin əsərin təsir gücünü artırmaq üçün poemaya bir sıra lirik şeirlər daxil etmişdir. Ən əsası da odur ki, Füzuli əbədi məhəbbət mövzusuna, insanın yaşaması, onun daxili azadlığı kimi məsələlərə fərqli təfəkkür prizmasından yanaşmışdır. Bu poema Füzulinin şah əsəri hesab edilir. 3096 beytdən ibarət olan poema Bağdadın osmanlı hakimi Üveys Paşaya həsr olunmuşdur. Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyov 1907-ci ildə Füzulinin "Leyli və Məcnun" poemasının motivləri əsasında ilk Azərbaycan operası olan "Leyli və Məcnun" operasını yazmışdır. Poemada bir-birini təmiz məhəbbətlə sevən Qeyslə Leylinin acı taleləri elə zəmanənin faciəsi kimi təqdim olunur. Şair iki aşiqin vüsala yetmədən həyatdan getmələrini təsvir etməklə göstərmək istəmişdir ki, ehkamların hökm sürdüyü cəmiyyətdə həqiqi məhəbbətə, insanın sərbəst düşünməsinə yer yoxdur.

Leyli və Məcnun məhəbbəti məktəbdən başlayır. Onlar bir-birini yalnız mədrəsədə görür və bu məhəbbətə, qarşılıqlı münasibətə burada daha da yaxınlaşırlar. Məcnunun iztirabı, həsrəti Leylinin məktəbdən getməsi ilə başlayır. Həm Məcnun, həm də Leyli eyni sosial statusa malikdirlər. Yəni hər ikisi qəbilə başçılarınının yeganə övladıdır, var-dövlət cəhətdən də eyni zənginliyə malikdirlər. Amma Leylinin atası qızını belə bir imkanlı ailənin oğluna vermək istəmir. Burada əsas məsələ Qeysin insani münasibətlərə, məhəbbətə, ailə qurulmasına dair özünəməxsus keyfiyyətlərə malik olmasıdır. Onu başa düşmədikləri və qəbul etmədikləri üçün Qeys Məcnuna çevrilir. Bu “məcnunluq” insan sevgisindən, insanın insana olan münasibətindən irəli gəlir. Elə buna görədə o, özünü səhrada, heyvanlar arasında daha yaxşı hiss edir. Leyli isə Məcnuna göndərdiyi bir məktubda öz hüquqsuzluğunu, qul, əşya kimi alınıb satıldığını bildirərək yazır:

Mən gövhərəm, özgələr xiridar,
Məndə degil ixtiyari-bazar,
Dövran ki, məni məzada saldı,
Bilməm Kim idi satan Kim aldı,
Olsaydı mənim öz ixtiyarım,
Olmaz idi səndən özgə yazım.

Leylinin Məcnuna olan məhəbbətini eşidən ana həyəcan və qorxu hiss edir və o, bunu Leyliyə etdiyi nəsihətlərdə açıq bildirir:

Keyşux, nədir bu göftugulər?
Qılmaq sənə tənə eybculər?
Nəycün özünə ziyan edirsən?
Yaxşı adını yama edirsən?
Nəyçün sənə tənə edə bədyu?
Namusuna laiq işmidir bu?

Qadın azadlığı həya, abır, namus, ismət cilovları ilə buxovlanmış olur. Əsərdə qadının öz istədiyini dilinə gətirməsi, sərbəst ailə qurmaq arzusu ilə yaşaması belə ədəb-ərkandan kənar sayılır. Əsas faciə ondadır ki, Leyli öz hüququ uğrunda qismən də olsa mübarizə aparsa da ətrafında özünə həmdəm tapılmaması üzündən nəticə əldə olunmur. O, ətrafdakılar tərəfindən anlanılmadığına görə dərdini şamla, pərvanə ilə, ayla, buludla, dəvə ilə bölüşməli olur. Leyli özünü cilovu başqasının əlində olan dəvəyə oxşadır:

Mən kimi yox əldə İxtiyarin,
Bir özgə əlindədir Məharin

İbn Səlam isə Leylini ova gedərkən görür, məftun olur. İbn Səlam mötəbər adamdır, kübarlar içində məşhurdur, bəxtiyardır, zəngindir, mərifət əhlidir. Şair onu baş qəhrəmanı Məcnun ilə müqayisə edir. O, Leyli üçün elçi getməyə ən ağıllı, münasib bir adam tapır. Leyli İbn Səlamı sevməsə də, ondan kənar olmaq

istəsə də, İbn Səlam nəcibliyində qalır. Leyli toy gecəsində öz dərdini ona danışandan sonra qızın bütün iztirablarına inanır, alicənablıq edir, fikrini tamam dəyişir, hicranı özünə ruzi edir. Poemanın axırlarına yaxın Leyli və Məcnunun üz-üzə gəldiyi yerdə gözlənilməyən bir hadisə baş verir, bir az əvvəl səhrada karvanı itirən, azıb sərgərdan gəzən Leyli, Məcnuna rast gələndə onu tanımamışdı. İndi İsə Məcnun Leylini tanımır və ya tanımaq istəmir. Leyli özünün hər bir qeyd və şərtdən uzaq olduğunu, deyəndə Məcnun kənara çəkilir, belə bir vüsala taqətsiz olduğunu iddia edir:

Yaqmağa məni yetər xəyalın,
Yoxdur mənə taqəti-vüsalın!
Ol gün ki, gözümdə var idi nur,
Gözdən üzünü qaçırdın, ey hur...
Eşq etdi binayi-vəsli mohkəm,
Mənidə məni səninlə həmdəm!..
Məndə olan aşikar sənsən,
Mən xud yoxam, ol ki, var sənsən!...

Məcnun uğursuz bir eşqin mücəssəməsi olaraq qalmaq, Leylinin bakir xəyalı ilə yaşamaq və ölmək istəyir:

Mən eşq gazərgəhində xakəm,
Elcümlə bilirməniki, pakəm!...

Füzuli Məcnunu cəmiyyətdən kənar, azad şəraitdə duyduğunu, gördüyünü və istədiyini yazırdı. Məcnun bir çox cəhətdən Füzulinin “Rindü-zahid” poemasındakı Rind obrazının xələfidir. O da, köhnə fikirli, hiyləgər, şöhrət ehtiraslı ataya qarşı çıxır. Rind də Məcnun kimi yeni dünyanın oğludur. Füzuli ata ilə oğulun görüşləri, münasibət və əlaqələri arasındakı ziddiyyətin daha da dərinləşdiyini onların bir sıra həyat və ictimai-siyasi hadisələrə münasibətlərində göstərmişdir. Poemada şair bir sıra münasibətlər kompleksi yaratmışdır ki, onlar da psixoloji-mənəvi aləmdə baş verən ziddiyyətlərin təcəssümüdür. Həmin cəhət poemada Məcnun surətində

ifadəsini tapmışdır. Füzuli qəhrəmanı hiss adamıdır. O, dünyaya göz açdığı ilk anlardan həyatla qarşı-qarşıya durur, gələcəkdə keçirəcəyi faciəli günləri üçün ağlayır. Elə ilk günlərdən Füzuli qəhrəmanı ictimai mühitlə uyğunlaşa bilmir, onun həssas daxili aləmi belə həyat tərzi ilə təzadda olur. Hakim ictimai normalarla mənəvi mübarizəyə girişən Füzuli qəhrəmanı eşqi və sədaqəti həqiqi amal, kamal və qəhrəmanlıq səviyyəsinə qaldırır. O, fikrinin dürüstlüyünə, əqidəsinin saflığına inandırğı kimi, müasiri olduğu cəmiyyətin çürüklüyünü də aydın dərk edir. Məcnun bunu həm də adi romantik hisslərin aludəsi olmuş bir gənc kimi yox, Şərq fəlsəfəsini və mədəniyyətini mükəmməl bilən bir şair kimi başa düşür. Füzulinin ideal qəhrəmanı bədii bir obraz kimi diqqətəlayiq cəhətlərə malikdir. Məcnun surətində bədii ümumiləşdirmədən daha çox fərdi cizgilər vardır. Füzulinin ideal qəhrəmanı bədii bir obraz kimi diqqətəlayiq cəhətlərə malikdir. Füzuli dövrün mühüm ictimai hadisələrinə Məcnun obrazı ilə əlaqədar epizodlarda geniş şəkildə toxunmuşdur. Füzulinin yaratdığı Məcnun obrazını təhlil edən prof. M. Quluzadə qeyd edir ki, *“bu obraz şairin müasiri kimi qarşımızda canlanır.”* Q. Cahani isə qeyd edir ki, *“...şair Məcnun surətini dövrünün canlı xarakteri səviyyəsinə qaldırmışdır, çoxcəhətli həyat dramı məhz bu surət vasitəsiylə əks olunmuşdur. Böyük sənətkar müasiri olduğu cəmiyyətin bütüm ziddiyyətlərini bu obraz vasitəsi ilə əks etdirməyə, ictimai mühitin qüsurlarına münasibətini bildirməyə çalışmışdır.*”-

Nizami Leylisindən fərqli olaraq Füzuli Leylisi zəmanədən daha çox şikayətlənir, etirazlarını ardıcıl bəyan edir. Füzuli lirik şair kimi yeni əlavə ricətlərlə Leyli surətinin fəaliyyətinə geniş meydan açdığını özü də qeyd edir. Əsərin bir yerində Leyli və Məcnunun məhəbbət atəşinə daha çox yandığını və tənə oxuna artıq giriftar olduğunu söyləyir. Ancaq əlavə edir ki, sevgilisi heç olmazsa *“hicab məhbusu, ağzı bağlı deyil, başqaları ilə danışmaq, səhralara üz tutmaqla dərdini azaldır.”* O isə daxili aləmini bəyan etmək, səhralara qaçmaq hüququndan da məhrum

edilmişdir. Leylinin dörd divar arasında ağlamaqdan başqa imkanı yoxdur. Leyli çırağı məhz özünün bu vəziyyətinə uyğun gördüyü üçün ona müraciət edir:

“Başdan ayağa nədir bu yanmaq,
Dudi-dilə dəmbədəm boyanmaq,
Nə cinsidir əslin ey bəlakeş
Kim abi-həyatın oldu atəş?
Mən həm sənə bənzərəm vəfadə,
Bəlkə neçə mərtəbə ziyadə
Sən gecə həmin yaparsan ey zar
Mən gecəvü gündüzəm giriftar

Füzulidəki əzəmətli qürur hissi, şairin məhəbbətinin, səmimiyyətinin dərinliyindən, ləyaqətinin yüksəkliyindəndir. O, eşq yolunda özünü Məcnun, Vamiq, Fərhad ilə müqayisə edir. Özünü onların təmiz əbədi insani hisslərinin varisi adlandırır:
Məcnun oda yandı şöleyi-ahilə pak,
Vamiq suya batdı eşqdən oldu həlak.
Fərhad həvəs ilə yelə verdi ömrün,
Xak oldular onlar, mənəm imdi ol xak

Leyli məclisə işıq verən şama bənzədildiyi üçün, Məcnun cigər yandıran oda bənzədilir. Leyli gözəllər səflərinin əmiri sayıldığı üçün, Məcnun qənı fəqirlərinin başçısı sayılır. Bənzətmələrin bu cür, məna, məntiq vəhdətilə davam etdirilməsi sənətkarlıq etibar ilə nə qədər çətin, nə qədər böyük məharət istəsə də, dahi şair bü çətinlikdən qaçmamışdır.

Bəli, əsərin mərkəzi surəti varlı bir qəbilə başçısının ailəsində nəzir nıyazla doğulan Qeys-Məcnunun timsalında M.Füzuli eşqi yolunda cəfa çəkən, məhəbbətini hər şeydən üstün tutan ideal bir aşiq obrazı yaratmışdır. Məcnun dünyaya gələn gündən ağlayır. Əslində, dünyaya göz açan körpənin ağlaması təbii bir haldır. Ancaq şair bunu rəmzi mənada təqdim edir. Qeys gələcəkdə qarşılaşacağı müsibətləri qabaqcadan duyur və buna görə də ağlayır. Hələ uşaq ikən özü ilə onu əhatə edən aləm arasında bir

uyğunsuzluq hiss edən Qeys zəmanənin dərdini çəkmək istəyir.

Qeysin dünyaya gəlməsinin, uşaqlıq çağlarının belə rəmzi təqdimatı ilə onun sonrakı faciəli taleyi üst-üstə düşür. Məktəbə gedən Qeys burada ərəb qızı Leyliyə vurulur. Lakin Qeys bu məhəbbətdə xoşbəxtlik tapmır, əksinə faciələrə düçar olur. Onun saf eşqi, azad məhəbbəti eybəcər adətənənələrin, insan şəxsiyyətini alçaldan qadağaların hökm sürdüyü cəmiyyətdə dəlilik kimi qiymətləndirilir. Anası Leylini ondan ayırmaq üçün qızını məktəbə buraxmır. Ayrılıq dərdinə dözməyən aşıq çöllərə üz tutur, öz azadlığını təbiətin qoynunda tapır, dərdini dağa, ceyrana, göyərçinə söyləyir. Ətrafdakılar Qeysin bu hərəkətlərini başa düşməkdə acizdirlər. Hamı onu Məcnun - dəli adlandınr. Leylinin atası qızını Qeysə bir şərtlə verməyə razıdır: O, eşq dəliliyindən sağaldılmalıdır. Lakin Qeys müqəddəs Kəbədə Tanrıdan ağıl deyil, daha artıq eşq diləyir və haqq aşiqinə çevrilir. Qeysin cəmiyyətdən üz döndərməsi onun köhnəlmiş adət-ənənələrə, bütövlükdə zəmanəsinə bir etirazdır. O, dövrün buxovlarına baş əymir, daxili azadlığını, saf məhəbbətini uca tutur, Qeys Leylinin yoxluğuna dözə bilmir və onun qəbri üstündə həyatla vidalaşır.

“Leyli və Məcnun” poemasının ikinci qəhrəmanı Leylidir. Müəllif onun timsalında dövrün insan haqlarından məhrum qalan qadınlannın ümumiləşdirilmiş obrazını yaratmışdır. Məktəbdə zəkalı bir oğlan olan Qeysin qəlbini ovlayan Leylinin özü də onu bütün variığı ilə sevir və öz xoşbəxtliyini bu məhəbbətdə görür. Lakin qadının əşya kimi alınıb-satıldığı bir zamanda Leylinin xoşbəxt günlərinin ömrü qısa olur. Onu məktəbdən ayırıb sevmədiyi, üzünü görmədiyi başqa bir adama - ibn Salama ərə verirlər. Leyli Məcnuna göndərdiyi məktubda öz hüquqsuzluğunu belə təsvir edir:

Dövran ki, məni məzadə saldı,
Bilməm kim idi satan, kim aldı,
Olsaydı mənim bir ixtiyanm,
Olmaz idi səndən özgə yarim.

İxtiyarı özündə olmasa da, Leyli məhəbbətinə axıradək sadiq qalır. Onun ər evində günləri göz yaşları içində keçir. Sevgilisi Məcnuna qovuşa bilməyəcəyini dərk etdikdə isə həyat onun nəzərində mənasını itirir və o, çıxış yolunu ölümdə görür. Leyli döyrünün qadınlarının iztirablarını, mənəvi işgəncələrini əks etdirir. Fərq ondadır ki, Leyli mənən azaddır. Onun qəlbində qadın hüquqsuzluğuna qarşı kəskin etiraz var. Müəllif Leyli obrazını yaratmaqla qadın azadlığı problemini qaldırmış, zəmanəsində qadına bəslənilən haqsız münasibətə kəskin etirazını ifadə etmişdir. Poemada təsvir edilən İbn Salam, Nofəl, Zeyd, Leyli və Məcnunun valideynləri kimi başqa surətlər əsərin ideyasının açılmasına, hadisələrin inkişafına kömək edirlər.

Dahi Füzulinin dühasından yaranan “Leyli və Məcnun” poeması dünya poeziyasında məhəbbət mövzusunda qələmə alınan ən yaxşı əsərlərdəndir.

Şair şeir sənətini çox məsuliyyətli, çox çətin bir sənət sayır. "Leyli və Məcnun" poemasının müqəddiməsindəki minacatında qarşısına qoyduğu vəzifənin öhdəsindən gəlmək üçün cəhd edir. Şeirinin təsirli, aşılayıcı olmasını arzulayır, sözünün "Leyli kimi qəlb ovlayan", nəzminin "Məcnun kimi ürək yandıran" olmasını istəyir.

**Diskusiyalar** keçirilərkən, Füzuli haqqında yazılmış kitablardan söhbət açılır və bu haqda oxucuların fikirləri öyrənilir. Kitabxanalarda oxucular tərəfindən sevilən tədbirlərdən biri də **müsabiqələr**dir. Bildiyimiz kimi Məhəmməd Füzuli bir-birindən maraqlı qəzəllərin, poemaların müəllifidir. Müsabiqə zamanı həmin şeirlərə, qəzəllərə, poemalara məktəblilər tərəfindən illüstrasiyalar çəkilməsi tapşırılır. Şəkilərin hazırlanması üçün uşaqlara iki həftə vaxt verilir. Bu vaxt ərzində oxucular Füzulinin yaradıcılığı ilə yaxından tanış olurlar. Ən gözəl məna kəsb edən rəsm işləri mükafatlandırılır. Həmçinin rəsm müsabiqələri üçün məktəblərarası yarışmalar da təşkil etmək olar. M.Füzulinin yubileyi ərəfəsində onun yaradıcılığını oxuculara tanıtmaq məqsədilə kitabxanada yazıçının qələmə aldığı əsərlərin təhlilinin keçirilməsi məqsədəuyğundur. Bunun üçün kitabxanaçı əvvəlcədən özü M.Füzuli haqqında ətraflı məlumat toplamalı, kitabları ilə tanış olmalıdır.

***Məhəmməd Füzulinin "Bəngü Badə", "Fəzliyə nəsihət", "Söhbətül-əsmar" əsərlərinin təhlili:***

**Kitabxanaçı:** M.Füzulinin bütün əsərlərində təlim-tərbiyə məsələsi özünü qabarıq şəkildə göstərir. Şair bu məsələlərin həlli yolunda alleqorik obrazları hərəkətə gətirir, həyat məsələlərinə nüfuz edir, böyük əhəmiyyət daşıyan elmi-fəlsəfi, didaktik-nəsihətamiz fikirlər irəli sürür, yeni nəslin mənəvi-əxlaqi keyfiyyətlərini, onlara məlum olan bu və ya digər anlayışların səciyyəvi xüsusiyyətlərini ön plana çəkməklə, xarakterik cəhətlərini formalaşdırır. M.Füzuli gənclik illərində yazdığı "Bəngü Badə" əsərində dövrünün ictimai-siyasi məsələlərini iki hökmdarın timsalında təsvir etmişdir. Əsas tənqid hədəfləri Bəng ilə Badədir. Bu təkəbbürlü və lovğa feodal obrazları özlərindən olduqca razıdırlar. Hər iki sarayın təsvirində saray əyanları, bununla yanaşı xeyirxah qüvvələr, öz ictimai-əxlaqi xarakterləri ilə vəhdətdə təsvir olunurlar. Badənin

məclisində saray əyanları əyyaşlıqla məşğuldurlar və onların müharibəyə başlamaq fikri də elə buradan doğur. Əsərin sonrakı məclisi Bəngin sarayında vaqe olur. Lakin Badədən fərqli olaraq Bəngin məclisi elmdən, şeirdən və hikmətdən ibarətdir. Bununla belə, hər iki hökmdarın sarayında etibarsızlıq və sədaqətsizlik hökm sürməkdədir. Hökmdarların ikisi də öz qızğın hisslərinin əsirinə çevrilmiş, qəzəbdən qızarmış gözləri ayaqlarının altını görmür. Öz alladıcı hisslərini cilovlaya bilməyən Badə ilə Bəng ən nəhayət qarşı-qarşıya gəlirlər və baş verən bu qanlı mübarizədə Badə rəqibi üzərində qələbə çalır. Lakin, bütün bunlarla bərabər, şair göstərir ki, şərab və bəng (tiryək) insan həyatına böyük bəlalar gətirir. Bir-birinin eyiblərini açan bu obrazlar – Badə və Bəng- sərxoşluğun və tiryəkə mübtəla olmağın insan həyatına böyük faciələr gətirəcəyini özləri izhar edirlər. Əlbəttə, bu, şairin özünün gəldiyi qənaətdən irəli gəlirdi. Öz bədii yaradıcılığı ilə yeni nəslin əxlaqi-mənəvi hisslərini qoruyan müəllifin bu nəticəyə gəlməsi təbii görünür.

Fars dilində qələmə aldığı "Fəzliyə nəsihət" adlı əsəri ilə böyük sənətkar oğlunun simasında gənc nəslə əxlaqi-mənəvi tərbiyə hissləri aşılayır.Əsərin başlanğıcında şair məharətlə ədəbi priyomdan istifadə edir.

"Söhbətül-əsmar" əsərində olduğu kimi, şairin yolu bir bağa düşür və burada ona qəribə işlər əyan olur. Görür ki, qoca bağban bəhər götürmək məqsədilə bir cavan fidan əkmiş və uzun müddət onun qayğısını çəkmişdir. Ən nəhayət, böyümüş ağac meyvə gətirmişdir. Meyvə nə qədər ki, ağacın üstündə qərar tutursa, onun heç bir qayğıya ehtiyacı yoxdur. Lakin zaman keçdikcə, tədricən meyvə yetişir və bundan sonra artıq onun ağaca ehtiyacı qalmır. Daha meyvə ağacda boş yerə qala bilməz. Görkəmli şair bu mənzərəni təsvir edəndən sonra üzünü oğluna tutub deyir:

Dinlə məni, ağıllı balam, diqqət ilə sən,
Bu incə nüqtə sirrini ta eyləyim bəyan.

Salsan həqiqət aləminə yaxşı bir nəzər,
Sən meyvəsən, mən isə ağac, dəhr busitan.

M.Füzuli oğlu Fəzliyə başa salır ki, nə qədər mənə möhtac idin, mən sənin üçün ən mehriban ata idim. Lakin sən böyüyəndən sonra, artıq cismi zəifləmiş bir qoca ilə eyni sırada addımlaya bilməzsən, daha özün müstəqil həyata qədəm qoymalısan:

Mənsiz yaşa, qazan özünə hörmət, etibar,
Mən maneyəm, yoxunsa bu gün nam ilə nişan…
Bir ləl kan içində kəmalə çatıb əgər,
Hökmi-təbiət ilə gərək qalmasın nəhan

Müəllif oğlu Fəzlinin anadan olduğu gündən, gənclik illərinə qədər keçən ömrün anlarını, onu boya-başa çatdırdığı illərdə çəkdiyi əzab-əziyyətləri yada salır, onu canından artıq sevsə də, o, daha bir ata kimi oğlunun müstəqil şəkildə öz gələcək xoşbəxt həyatını qurmağını istəyir. Əsərin başlanğıcında təsvir etdiyi mənzərədən ibrət götürməyi məsləhət görən şair sonda öz tövsiyəsini verir:

Səndən savay yoxsa da candan mənə əziz,
Dırnağı ətdən üzməyə qalmış bugün güman.
Meyvə ilə ağac bizə də bir nümunədir,
İbrət götür, gözəl deyilibdir bu dasitan…

Şair bu əsərində oğlu Fəzlinin timsalında yeni nəslə üzünü tutur, onların ata-anaya yük olmamalarını, özlərinə müstəqil həyat qurmalarını, heç kimə baş əyməmələrini, idraklarının gücü ilə irəli getmələrini nəsihət edir.

“Fəzliyə nəsihət” adlı əsəri ilə böyük sənətkar oğlunun simasında gənc nəslə əxlaqi-mənəvi tərbiyə hissləri aşılayır.

M.Füzulinin əsərləri ideya, mövzu və sənətkarlıq baxamandan iki mənbə ilə: həm şifahi xalq ədəbiyyatı, həm də klassik Şərq şeirindəki sufi ədəbiyyatı və onun mütərəqqi ənənələri ilə əlaqəlidir. Şair bu mənbələrin motivləri əsasında qələmə aldığı alleqorik əsərlərində təmsili obrazlardan orijinal şəkildə istifadə etmişdir. Füzulinin alleqorik əsərləri içərisində “Söhbətül-əsmar”, istər məzmun və istərsə də, quruluşu etibarilə olduqca

sadədir. Əsəri oxuyarkən elə təsəvvür yaranır ki, şair bu əsəri məhz uşaqlar üçün yazmışdır. Əsərin sadə dilə malik olduğunu da nəzərə alsaq, bu fikirdə qalmaq ehtimalı bir qədər də reallaşır. Bu əsər ideya baxımından "Bəngi Badə"nin davamı təsəvvürünü yaradır. Hətta quruluşu etibarilə də həmin əsəri xatırladır. "Bəngü Badə"də verilmiş baharın təsviri, bu əsərdəki bahar təsvirinə olduqca yaxındır. "Söhbətül-əsmar" poeması kiçik bir bahar təsviri ilə başlayır:

Nərgiz ki, göz açdı bağə girdi,
Bir baxmağılan özün itirdi.
Kəcgərdən olub bənəfşeyi-zar,
Bir nəşəyi-meylə oldu xummar…

Baharın gözəl çağında hər bir canlı varlığın dilini bilən, könlünü açmaq üçün bağa gələn arif bir şəxs burada meyvələrin mübahisəsini eşidir və bərk dilxor olur. Burada alça, alı, gilas, zərdalu (ərik), alma, armud, heyva, əngur (üzüm), narınc, nar, rütəb (xurma), badam, püstə və sair meyvələr yalnız özlərini tərifləməklə məşğuldurlar. Hər bir meyvə özü-özünə tərif dedikcə, onların rəngi, dadı, məişətdəki yeri oxucuya məlum olur. Belə ki, şair bir tərəfdən uşaqları bu meyvələrlə tanış edir, ikinci bir tərəfdən, təsvir etdiyi meyvələr üzərində cəmləşdirdiyi mənfi tiplərə xas olan, bəşər övladına yabançı olan pis, naqis sifətləri ifşa edir, yeni nəsli bu mənfur xarakterli ünsürlərdən uzaq olmağa çağırır. Bir obraz kimi təqdim olunan bu meyvələrin hərəsinin özünə məxsus məziyyətləri vardır. Alça özünün insanlara şəfa mənbəyi, xəstələrə bir məlhəm olduğunu fəxrlə bildirir. Alma özünü sevgililərin məhəbbət rəmzi kimi təqdim edirsə, armud bundan fərqli olaraq, xəstə yanına aparıldığını söyləyir. Üzüm ondan əmələ gələn şeylərin məişətdə tutduğu yeri ilə fəxr edir. Nar özünü müqəddəsliyin mücəssəməsi sayır, cənnət meyvəsi olduğunu fəxrlə bildirir. Zərdalu isə ticarətdə yaxşı qiymətə getdiyindən danışır. Burada

təsvir olunan hər bir meyvənin xudpəsəndliyi, lovğalığı, məddahlığı onların öz dilindən bəlli olur. Lakin şair meyvələri danışdırsada, onların hər birinin arxasında müxtəlif xarakter və psixologiyaya malik olan insan obrazlarının dayandığını duyuruq. Mənəm-mənəmlik çamurluğunda əlqol atan bu lovğa məddahların mənəvi aləmi açıldıqca, şairin cəmiyyətdə mövcud olan mənfi xarakterli ünsürlərin tənqidini aydın şəkildə görürük. Bağdan əhvali-ruhiyyəsi pozulmuş halda qayıdan bu adam, yolunu bostandan salır və demək olar ki, burada da eyni mənzərənin şahidi olur. Əgər bağdakı mübahisələr yalnız dava-dalaşla nəticələnmişdirsə, bostanda baş vermiş hadisələrin sonu dəhşətli faciə ilə bitir. Şah Qovun vəzifə bölgüsündə Qarpıza vəzirlik vermişdir. Gərməklə Xiyar böyük rütbə sahibidirlər və hamısı da Qovunun tabeliyindədir. Meyvələrdən fərqli olaraq, onların lovğalığı, təkəbbürlülüyü bir şah sarayının dağılması ilə nəticələnir. Saray əyanlarının lovğalığından qəzəblənən şah Qovun onları cəzalandırır: birini şaqqalatdırır, birisinin dərisini soydurur, digərini vəzifəsindən azad edir. Lakin qəzəblənmiş hökmdarın hikkəsi bununla soyumur, hirsindən başını xişm ilə ayırır. Belə ki, çanaq axırda şahın öz başında çatlayır. Şair əsərin sonluğunu bu misralarla bitirir:

Dünya işinin mədarı yoxdur,
Heç kimsəyə etibarı yoxdur.
Eylər birisini sahibi-tac,
Ol birisin eylər ona möhtac.

Müəllif bu misralarla dünyanın sahibi-taclara və möhtaclara bölünməsini ədalətsizlik sayır, bu ədalətsizliyi öz dövrünün ayağına yazır. “Söhbətül-əsmar” poeması olduqca sadə yazılmışdır və uşaqlar tərəfindən çox aydın başa düşülür. Elə buna görə də, bu gün də məktəblərdə bu əsərdən uşaq oxusu kimi geniş istifadə olunur. Burada mövcud olan fəlsəfi məzmunu bir

tərəfə qoysaq, bu alleqorik əsər, real həyat həqiqətlərinə söykəndiyinə görə, uşaqlar tərəfindən böyük maraqla qarşılanır. Müəllif real insanların xarakterik xüsusiyyətlərini təbiətdən alınmış rəmzi, alleqorik obrazlar vasitəsilə təsvir edir, sətiraltı mənalarla mövcud ictimai quruluşa qarşı çıxır, sarkazm üsulu ilə öz dövünə tənqidi münasibətini bildirir.

Təhlilin sonunda məktəbli oxucuların ifasında "Söhbətül-əsmar" poeması səhnələşdirilərək münsiflərə təqdim olunur. Münsiflər heyəti kitabxana müdirindən, teatrımızın görkəmli nümayəndələrindən təşkil edilir. Yaxşı olar ki, tədbirə Füzuli yaradıcılığı ilə yaxından maraqlanan şair və yazıçılar dəvət olunsun.

*Səhnə xüsusi dekorasiyalarla bəzədilir. Əsərə uyğun geyimlərdə uşaqlar səhnəyə çıxır.*

**Aparıcı:** Bahar fəsli idi. Çöllər, çəmənlər yaşıl don geymişdi. Qış yuxusundan ayılmış güllər, çiçəklər min rəngə çalırdı. Lalə elə qızarmışdı ki, elə bil bağrına dağ çəkmişdilər. Nərgiz gülü bağa girən kimi ətrafına baxıb özünü itirdi. Bənövşə aciz-aciz boynunu əyib durmuşdu. Qönçələrin açıldığını görən şeyda bülbül sevinir, qızılgülə baxıb ah-naləyə başlayırdı. Çəmənlərdə yasəmənlərin xoş rəngi, ətri, gözəlliyi qəlbə fərəh verirdi. Təbiətin belə gözəl çağında, meyvələrin dilini bilən bir nəfər arif adam bağa gəzməyə gəldi. O, bağa girən kimi meyvələrin fəxr edib öyündüklərini gördü. Alça deyirdi:

**Alça -** Dünyada mənin kimi gözəl meyvə hanı? Qızdırma xəstəliyinə tutulanların şəfası, ağzı acı olanların dəvası mənəm. Bütün həkimlərin dediyi kimi, mən başağrısının dərmanıyam.

**Aparıcı:** Alça sözünü deyib qurtaran kimi Gavalı hirslənib dedi:

**Gavalı** - Ey əfəl, utanmırsan ki, belə fəxr edirsən? Turşuluqdan dişləri qamaşdırırsan, səni yeyən adam ya əzgin olar, ya da iflic. Meyvələr içində səndən yaramazı yoxdur. Mənim isə adımı Gavalı qoyublar. Yüz min tərəfə saçılan budaqlarım var; dürr kimi saf, gah yaşıl, gah qırmızı, gah ağ-qırmızı, gah da zəfəran rənginə çalan meyvələrim var.

**Aparıcı:** Gilas Gavalının səsini eşitcək ona belə tənə vurdu:

**Gilas** - Heç utanıb xəcalət çəkmirsən? Bəsdir özünü bu qədər tərif elədin. Sənin dadına baxan adam gərək gündə üç dəfə bal yesin. Mənim əynimdəki gözəl libasım heç bir meyvədə yoxdur, dənələrim göydəki ulduzlara bənzəyir. Hər budağım bir sərv ağacıdır. Bütün gözəllər mənim həsrətimi çəkirlər.

**Aparıcı:** Bu sözləri eşidən Ərik qışqırıb dedi:

**Ərik** - Gör Gilas necə qudurub! Ey qarğa və sağsağanların yemi! Bu eyiblə fəxr edib özünü öyürsən?! Vücudun bir damcı su ilə sümükdən ibarətdir. Səni yeyən ziyandan başqa bir şey görməz. Səni bəsləyən bağban axırda zərərini çəkər. Mənim adımı Ərik qoyublar. Gah zümrüd kimi yaşıl, gah da qızıl suyuna salınmış kimi sarı oluram. Bağbanlar məni qurudurlar, karvanlar uzaq ölkələrə aparırlar. Hər yerdə məni əziz tuturlar, mən xörəklərin dadı, ləzzətiyəm.

**Aparıcı:** Əriyin dediyini eşidən Alma acıqlanıb qışqırdı:

**Alma** - Ey qurdlu, vərəmli, yaxası yarıq! Sənin paltarın tozludur, özün də torpaq dadı verirsen. Xasiyyətini bilə-bilə özünü öyürsən. Səni yeyənin qarnı şişər, bəlaya düşər. Mənim isə adımı Alma qoyublar; üzüm al-qırmızıdır, paltarım atlazdandır. İki sevgilinin arasında hamıdan məhrəməm. Məclisdə heç kim məni qoyub, başqa meyvələrə əl vurmaz.

**Aparıcı:** Alma bu sözlərlə öyünməkdə ikən Armud irəli çıxıb dedi:

**Armud** - Ey şeytan kimi fəsad törədən! Tərifə layiq olsaydın, adın alma yox, al olardı. Mənim adımı isə Armud qoyublar. Yaxşı xasiyyətim var, nuşcanlıqla yeyərlər. Hər xəstəyə şəfa, hər dərdə dəvayam.

**Aparıcı:** Armud özünü hey tərifləyirdi. Birdən Üzüm onun səsini eşidib qəzəbləndi və Armuda belə dedi:

**Üzüm** - Ey qarnının qurdundan rəngi saralmış, ey zəiflikdən başı yekəlmiş! Özün dərdli olduğun halda, özgələrə necə əlac edərsən? Keçəl dərman bilsəydi, öz başına yaxardı. Əvvəlcə get öz dərdini sağalt, sonra da başqalarına şəfa ver. Mənim adımı isə Üzüm qoyublar. Səbzə, kişmiş, mövüc məndən olur. Meyvələr içində mən hamıdan əzizəm. Turşu da məndən olur, halva da, şərab da. Kef məclislərinin ziynəti də mənəm, mən!

**Aparıcı:**Heyva bu danışığı eşidən kimi hirsindən sapsarı saraldı. Üzümə dedi:

**Heyva** - Ağzını yum! Səndən hazırlanan şərabı içən adamın həm pulu gedər, həm abır-həyası, axırda hamının gözündən düşüb müflis olar, qəmə, qüssəyə batar. Ləzzət də desən məndədir, dad da, yaxşı ad da. Bütün bağ və bağçanı mənim ətrim bürüyüb: məni bəzək üçün taxçalara düzür, hər bir ölkəyə aparıb, gözəllərə töhfə verirlər.

**Aparıcı:**Heyvanın öyündüyünü eşidən Narınc dilə gəlib dedi:

**Narınc** - Ay yazıq, utanmırsan belə sözlər danışırsan? Özündən xəbərin yoxdur, acığından rəngin saralıb? Hamı sənə rişxənd edir, sən isə özünü tərifləyirsən. Qarnın qurdla dolub, bədənin

qurdlara məskən olub. Mənim isə adımı Narınc qoyub, əynimə elə gözəl paltar geydiriblər ki, həmişə bu paltarımla fəxr edirəm. Elə bircə şəklimə baxanın xoşu gələr.

**Aparıcı:**Turunc dilləndi:

**Turunc** - Ey ağılsız! Paltar nədir ki, onunla fəxr edirsən? Eşşəyin üstünə zərli, naxışlı palan qoymaqla, çönüb adam olmaz. Mən şahların ən çox xoşladığı meyvəyəm. Bağın çırağıyam. Rəngim həmişə yaşıldır, görkəmim təzə.

**Aparıcı:**Bu sözləri eşidən Nar, Narınc ilə Turuncun fəxr etdiklərinə gülüb dedi:

**Nar**- Bu mənasız danışıqlar, puç arzular nədir? Rəngə qalsa, mənim meyvəmin, çiçəyimin rəngi hamıdan əladır. Tərifəlayiq bir şey varsa, o da mənim turşaşirinliyimdir. Mən özümü tərifləyib deyirəm ki, Narınc ilə Turunc nökərim, Heyva ilə Alma qulluqçularımdır.

**Aparıcı:**Nar özünü bu cür tərif etməkdə ikən bağda Xurma bunları eşitdi. Narın üstünə qışqırıb dedı:

**Xurma** - Az təriflə özünü, sən buna layiq deyilsən! Amma mən bütün Ərəbistanda və sair yerlərdə məşhuram, məni Misir və Şam ölkələrindən hər yerə sovqat aparırlar. Məni o qədər xoşlayırlar ki, cürbəcür adlarla çağırırlar.

**Aparıcı:**Xurma özünü tərifləyib qurtaran kimi, Badam qeyzle nərə çəkib ona dedi:

**Badam** - Ey səyyah Xurma, sənin pisliyin elə ondadır ki, heç vaxt bir yerdə qərar tutmursan, gah bağdadlı olursan, gah da isfahanlı. Sənin bu tərifini eşidib lap əridim. Mənim isə o qədər

yaxşı xasiyyətlərim var ki, sadalamağa utanıram. Abinabat, noğul, halva məndən hazırlanır.

**Aparıcı:**Püstə bunları eşidib ağzını açdı. Badama bu sözlərlə sataşdı:

**Püstə** - Ey kinindən ağzı yumulu, arından üzü örtülü Badam! Sənin səxavətin az, xəsisliyin çoxdur.Minlərcə daş dəyməyincə sınmırsan.Mənim isə qönçə kimi ağzım açıqdır. Məni yemək istəyən əziyyət çəkməz.

**Aparıcı:**Bundan sonra Fıstıq, İydə, Şabalıd, Fındıq, İnnab, Tut, Albalı, Əncir, Zoğal, Qoz, Lumu sözə başlayıb hərəsi özündən bir əfsanə danışdı. Şaftalı deyirdi padşaham. Fıstıq deyirdi ki, ulduzlar içində Ayam. Qoz deyirdi mən şaham. Fındıq deyirdi şahənşaham. Lumu deyirdi mən bu bağın sevimlisiyəm. Şabalıd deyirdi pəhləvanam. Əncir deyirdi dünyada məşhuram. İnnab deyirdi gözələm. Zoğal deyirdi...Albalı da özünü tərifə başladı, Tut da tuti kimi dil-dil ötdü. Dincəlib ləzzət almaq üçün bağa səyahətə gəlmiş arif adam bu səs-küyü eşidib orada qalmaq istəmədi, evə qayıdarkən yolu bostana düşdü. O, bostanı elə bir vəziyyətdə gördü ki, az qaldı bağrı çatlasın. Burada Xiyar özünü tərifləyir, təcrübə və bacarığından danışıb deyirdi:

**Xiyar** - Mən ürək yanğısının dərmanıyam, məni yeyənlərin ürəyini sərinlədirəm.

**Aparıcı:**Bunu eşidən Gərmək üzünü xiyara tutub dedi:

**Gərmək** - Ay zalım, bu tərif nədir eləyirsən? Sənin bircə quru addan başqa nəyin var? Tərifə mən layiqəm ki, həm xəstələrə şəfa, həm ürəklərə səfa verirəm!

**Aparıcı:**Gərməyin tərifini eşidən Qarpız elə nərə çəkdi ki, dəniz kimi cuşa gəldi. O dedi:

**Qarpız** - Məgər bu xasiyyətlər məndə yoxdur? Mən dərdlərə şəfa, gözlərə işıq verirəm. Səfra, qızdırma və başağrısının dərmanıyam. Rəngim qırmızı, suyum saf və şirindir.

**Aparıcı:**Bunları eşidən Qovun hiddətləndi. Qarpıza verdiyi vəzirliyi, Gərməyə verdiyi vəkillik mənsəbini əllərindən aldı, Xiyarın qabığını soydurub, ixtiyarını əlindən aldı, Gərməyə bir neçə yerdən yara vurub parçalatdı. Qarpızı aradan böldü, Şamamanı bir tərəfə atıb dedi:

**Qovun**: Bu bostanda sizin şahınız mənəm! Ətrimin, dadımın tayı-bərabəri yoxdur!

**Aparıcı:**Xülasə, Qovun özünü o qədər təriflədi ki, axırda özü özünə hirslənib başını yardı. Bunu görən səyyah bostanda qalmaq istəmədi. Bu dünyanın işlərinə heyrət, lovğalananlara nifrət edib yoluna düzəldi.

Dünya işinin mədarı yoxdur,
Heç kimsəyə etibarı yoxdur.
Eylər birisini sahibi-tac,
Ol birisin eylər ona möhtac.

Müəllif bu misralarla dünyanın sahibi-taclara və möhtaclara bölünməsini ədalətsizlik sayır, bu ədalətsizliyi öz dövrünün ayağına yazır.

Kitabxanada oxucular tərəfindən sevilən tədbir növlərindən biri kitabxanaçının sərgi ətrafında **oxucularla söhbət** keçirməsidir. Bu söhbət yubilyarın yaradıcılığı, qələmə aldığı əsərlər və s mövzularda olur. Əvvəlcə kitabxanaçı oxucuları sərgidəki kitablarla tanış edib, bu katablar haqqında onlara dolğun məlumat verir. Sonra isə Nizami Gəncəvi ilə Məhəmməd Füzuli yaradıcılığında olan bağlılıq mövzusunda söhbətə başlayır.

**Kitabxanaçı:** Nizaminin Azərbaycan ədəbiyyatında şagirdləri dedikdə, ilk dəfə böyük Füzuli yada düşür. Ədəbiyyat tariximizdə Füzuli qədər Nizami ilə bağlı olan ikinci bir şair təsəvvür etmək çətindir. Bu bağlılıq və yaxınlıq hər iki şairin demək olar ki, əsas üslubunda, həyata şairanə, yüksək münasibətində, bir sıra əsərlərində həm məzmun, həm də forma cəhətdən özünü göstərir. Özündən əvvəl yazıb yaratmış sənətkarlardan Füzuli böyük şair olaraq öz sələflərinə çox hörmət bəsləyir. Üç nəfərin adını xüsusi hörmətlə xatırlayır, onların sənətinə daha yüksək qiymət verir. Bunlardan biri ərəb şairi Əbu Nəvas, biri özbək ədəbiyyatının banisi Əlişir Nəvai, üçüncüsü isə, Şeyx Nizami Gəncəvidir. Füzuli bunların hər üçünə "müəzzəm" şair deyirdi. Ancaq Nizaminin o birilərdən ayırır. Divanında onun adını çəkir. Füzuli Nizamidən sonra ilk nəhəng və cahanşul şairdir ki, insan qəlbinin, mənəvi həyatın bəşər hiss və fikirlərinin geniş aləminə bu qədər yaxından və dərindən bəllidir. O, bu aləmin bütün hadisələrini öz əsərində ifadəyə çalışmışdır. Füzulinin faydalandığı bədii vasitələr, təsvir və ifadə vasitələri olduqca çox və müxtəlifdir. Onda klassik ədəbiyyatın üsullarını gördüyümüz kimi, tamam yeni və ilk dəfə işlənən üsullar da görürük. Eyni dərəcədə xalq ədəbiyyatı və xalq canlı dilinin zəngin mənbəyindən alınan xüsussiyyətləri gorürük. Füzuli dilində Şərqin üç məşhur və yayılmış dilinin tarixi mirası tamamilə nəzərə və hesaba alınmışdır. Füzuli həm ərəbcə, həm farsca, həm azərbaycanca yazmışdır. Özü də bir maraq, rəsmiyyət üçün yox, məhz yüksək sənət nümunələri yarada bilmişdir. Hətta üç dildə divan bağlamışdır. Bu fakt isə

onun sənətkarlıqda, hətta ən incə, ən xırda mətləbləri də işləməyə, saf-çürük etməyə, yaxşısını seçməyə vadar etmişdir. Cəsarətlə demək olar ki, Şərqdə Füzuliyə qədər elə bədii üsul, şeir forması yoxdur ki, Füzuli onu bilməsin və hesaba almasın.

Kitabxanada Məhəmməd Füzulinin 530 illik yubileyi ilə əlaqədar **ədəbi-bədii gecə**nin keçirilməsi məqsədəuyğundur. Çünki kitabxanada ədəbi-bədii gecələrin təşkili yubilyarın həyat və yaradıcılığı ilə yaxından tanış olmağa imkan verir. Gecəyə Füzuli yaradıcılığına yaxından bələd olan tanınmış yazıçılar, ədəbiyyatşünaslar, tənqidçilər, jurnalistlər dəvət oluna bilər. Ədəbi-bədii gecədə şairənin yaradıcılığı haqqında maraqlı söhbətlər edilir, qəzəlləri dinlənilir. Ədəbi-bədii gecənin ssenarisini təqdim edirik.

*Əvvəlcə iştirakçılara Məhəmməd Füzulinin həyat və yaradıcılığından bəhs edən* ***"Söz sənətinin mahir rəssamı"*** adlı *slayd təqdim olunur. Sonra isə aparıcılar səhnəyə daxil olurlar.*

**Ədəbi bədii gecə**

**I Aparıcı:** Salam hörmətli qonaqlar, əziz dostlar. İlk mənbələri eramızdan əvvəl icma quruluşuna gedib çatan zəngin şifahi xalq ədəbiyyatından başqa X-XII əsrlərdə Qətran Təbrizi, Xəqani, Nizami, XIII_XIV əsrlərdə Əvhədi, Əssar, Arif Ərdəbilli kimi elm aləminə məlum əsərlərini fars dilində yazmış sənətkarlar yetişdirmiş olan Azərbaycan öz ana dilində əsərlər yazıb Yaxın Şərqdə şöhrət qazanmış şairlər də böyütmüşdür. Bəli, Azərbaycan klassik ədəbiyyatı yüksək bəşəri ideallar, təmiz, müqəddəs və xeyirxah hissilər xəzinəsidir. Bu xəzinənin sakinlərindən olan Məhəmməd Füzulinin bu il Azərbaycan mədəniyyətində və ictimai həyatında dərin izlər qoymuş Azərbaycan, şərq və dünya elmi – nəzəri fikri tarixində "könüllər fatehi", "qəlb şairi", "eşq və məhəbbət nəğməkarı" kimi etiraf olunan Füzulinin 530 yaşı tamam olur. Məhəmməd Füzuli Azərbaycan ədəbiyyatının inkişafında əsaslı yer tutan, Şərq xalqları ədəbiyyatına güclü təsir göstərən, zəngin ədəbi irsə malik olan, orta əsrlər ədəbiyyatımızda ana dilində yaranan

şeirin, lirik poeziyanın ən böyük yaradıcılarından biri olmuşdur. O, öz bədii yaradıcılığı ilə gənc nəslin tərbiyəsində əsaslı xidmət göstərmişdir.

**II Aparıcı:** Klassik poeziyamızın sərrafı, böyük sənətkar Məhəmməd Füzuli Azərbaycan milli mədəniyyətinə böyük və dəyərli irs bəxş etmişdir. Füzuli özünü "bütün dövrlərin ən böyük Aşiqi", "eşq elminin müdərrisi" sayır, başqa aşiqlər hamısı bu külldən, "şərarədən" bir zərrədir söyləyir. Füzuli bədii sifarişi də şahlardan almayıb və heç zaman "Şahnamə" yazmayıb. Fərmanı və hökmü o, yalnız məşuqədən alıb və bütün əsərlərini vahid bir "Eşqnamə" kimi yazıb. Füzuli salamına da cavab verməyən məmurlara qarşı Füzuli öz məşhur "Şikayətnamə"sini yazır: "Salam verdim, rüşvət deyil, - deyə almadılar". Bəli, yaşadığı zəmanə şairin salamını almamışdır. İndi şair XX əsrə bir də salam verir və artıq dünya şairin salamını rüşvət kimi yox, ən ali bədii dəyər və mənəvi sərvət kimi qəbul edir!

**I Aparıcı:** Azərbaycan Ədəbiyyatının inkişafı tarixində Füzuli yaradıcılığı çox əhəmiyyətli yer tutur. Füzuliyə qədər Azərbaycan ədəbiyyatı son dərəcə mühüm bir inkişaf dövrü keçmişdir. Füzuli poeziysı əslində xalis elmi dəyərlərə əsaslanan intelektual poeziyadır. Burada gözəllik, idrak, iman və məhəbbət insanı təmizləyən və yüksəldən, ali həqiqətə çatdıran qüvvə kimi tərənnüm edilir. "Ənisül - qəlb", "Mətləül etiqad", "Rindü – Zahid" – elmi fikrin, "Hədiqətüs-süəda" və "Hədisi-ərbəin" isə XVI əsr tərcümə ədəbiyyatının ən gözəl nümunələrindən sayılır. Füzuli Azərbaycan mədəniyyətinin ən böyük nailiyyətləri olan Nizami, Xəqani ədəbi ənənələri ilə qidalanmış, o ənənələri davam, inkişaf etdirərək Azərbaycan ədəbiyyatına yeni məzmun, yeni bədii keyfiyyətlər gətirmişdir.

**II Aparıcı:** Bəli, kamil insan günəşdən, aydan, ulduzlardan da əzəmətli, sirli- sehrli bir aləm, yazılmamış bir kitabdır. Məhəmməd Füzuli yaradıcılığına boylananda onun nə qədər kamil insan olduğunun şahidi oluruq. Üç dildə ölməz əsərlər yaradan bu dahi sənətkar Yaxın Şərqin ədəbi həyatına, Türkiyə, İran, Orta Asiya xalqlarının ədəbiyyatına dərin təsir göstərmişdir. Azərbaycan ədəbiyyatının sönməz günəşi Məhəmməd Füzulinin yaradıcılığı həmişə ədəbi ictimaiyyətimizin diqqət mərkəzində olmuşdur. Ən böyük sənətkarlar onun yüksəldiyi şeir zirvəsinə qalxmağa çalışmış, özlərini bu dahi söz ustadının şagirdi adlandırmaqla fəxr etmişlər.

**I Aparıcı:** Şərqin ən mahir miniatüraçıları əfsanəvi bir səhnəni səliqə və incəliklərlə canlandırdıqları, onu əlvan rənglərlə bəzədikləri kımı, Füzuli də bir-iki misrası ilə oxucunun nəzərində elə canlı tablolar və romantik səhnələr canlandırır ki, onlarda olan səliqəyə, incəliklərə, əlvanlığa heyran qalırsan. Füzuli bu cəhətdən söz sənətinin mahir bir rəssamıdır. Şair üçün az sözlə unudulmaz lövhələr, canlı surətlər yaratmaq o zaman mümkündür ki, o, söz xəzinəsinin hakimi olsun. Füzuli isə nəinki söz sənətinin belə bir mahir rəssamı, həm də söz xəzinəsinin qüdrətli bir hakimidir.

**II Aparıcı:** Böyük sənətlə, sənətkarla doğma xalqı arasında həmişə ilahi bir ünsiyyət, qırılmaz bağlılıq olur . Xalqla Füzuli arasında əsrlərcə davam edən ünsiyyət, qırılmaz mənəvi əlaqənin milli ruhumuzla, zövq və səliqəmizlə, əxlaqi- fəlsəfi, bədii-estetik təfəkkür və anlayışlarımızla bağlı olduğunu hamı təsdiq edər. Bu, çox təbidir, həqiqi sənətkarları mənsub olduqları xalqdan, onun mənəvi həyatından, tarixindən ayrı təsəvür etmək olmur. Eləcə də Füzulisiz Azərbaycan xalqını, onun dil və mədəniyyət tarixini, əxlaq, fəlsəfə, sənət və ədəbiyyatını

düşünmək mümkün deyil. Füzuli böyük milli iftixarımız, mənəvi müasirimizdir!

**I Aparıcı:** Füzuli Orta əsrlər zülmət səltənətində işığa boylanan, nəcabət və gözəlliyə xoşbəxtlik və azadlığa can atan doğma xalqının ümid və arzularından yaranmışdı. On altıncı yüzillikdə Azərbaycanda və qonşu ölkələrdə feodal-ruhani münasibətlərin və sinfi ziddiyyətlərin kəskinləşdiyi, müharibələrin min-min insanı yurdsuz, xanimansız qoyduğu bir dövrdə Füzuli təkcə Azərbaycan xalqının deyil, eyni əzablı tarixi yol keçən Şərq ellərinin iztirab və təlaşlarını əks etdirmiş, istək və arzularından yazmışdır. Füzuli Azərbaycan xalqının bəşər mədəniyyəti xəzinəsinə verdiyi ən gözəl hədiyyələrdən biridir.

**II Aparıcı:** Füzuli dünya ədəbiyyatında nadir simalardandır. Onun adı Rüdəki, Firdovsi, Nizami, Dante, Şekspir, Nəvai, Hafiz, Puşkin, Bayron kimi söz ustaları ilə bir cərgədə durur. Füzuli Azərbaycan mədəniyyəti qarşısında çox çətin bir imtahan vermiş, Azərbaycan dilinin zənginləşməsi, inkişafı sahəsində öhdəsinə düşən şərəfli vəzifəni parlaq surətdə yerinə yetirmişdir. Yaxın Sərq ədəbiyyatında elə bir ədəbi janr yoxdur ki, Füzuli onda öz böyük istedadını sınamasın. O bütün dünyada ürək şairi kimi tanınmışdır. Məşhur ingilis şərqşünası Gibb onun şeir dühasını Şərqdə parlayan günəşə oxşatmaqda çox haqlıdır. Füzuli sənət dünyasında günəş kimi parlayıb əsrlər boyu Azərbaycan və Yaxın Şərq şeirinin inkişaf yolunu işıqlandırmışdır.

**II Aparıcı:** Lirika Füzuli yaradıcılığının şah damarıdır. O özündən əvvəlki Azərbaycan və Şərq şeir mədəniyyətini, onun gözəl tərəqqipərvər ənənələrini öyrənmişdir. Füzuli Nizami ənənələrini inkişaf etdirməklə bərabər Azərbaycan şeirinə ictimai-fəlsəfi məzmun, yeni bədii keyfiyyətlər gətirmişdir. O öz yaradıcılığı ilə söz sənətini geniş xalq kütlələrinə

yaxınlaşdırmış, onların həyat və səadət həsrətlərini əks etdirmişdir.

**I Aparıcı:** Füzuli yalnız lirika sahəsində deyil, epik şeir sahəsində də yüksək ideyalı bədii əsərlər yaratmışdır. Onun "Söhbətül-Əsmar", "Bəngü - Badə", "Həftcam (yaxud "Saqimamə"), Ənisül-qəlb" kimi azərbaycanca və farsca yazılmış poemaları əsrin ən tərəqqipərvər ictimai-əxlaqi fikirlərini əks etdirən gözəl əsərlərdir. Böyük şairin dərin ilham, coşqun yaradıcılıq ehtirası ilə yaratdığı "Leyli və Məcnun" poeması dünya ədəbiyyatının misilsiz bədii abidələrindən biri kimi ölməz əsərlər sırasına daxil olmuşdur.

**II Aparıcı:** Füzuli eyni zamanda istedadlı nasirdir. Onun istilaçı Sultan Süleyman sarayındakı özbaşnalığı, rüşvətxorluğu və ədalətsizliyi ifşa edən "Şikayətnaməsi" XVI əsr Azərbaycan nəsrinin yaxşı nümunələrindəndir. Fars dilində yazdığı "Rindü zahid", "Səhhət və mərəz", ərəb dilində yazdığı "Mətlə-ül-etiqad" adlı əsərlərində Füzuli öz əsrinin elmi– fəlsəfi bilikləri ilə möhkəm silahlandığını göstərməklə bərabər, mürtəce, köhnə əxlaqi görüşləri tənqid atəşinə tutmuşdur. Füzuli sənəti məhz bu sahədə daha xüsusi bir mövqe tutur.

**I Aparıcı:** Füzulinin yaradıcılığı son dərəcə zəngin və çoxcəhətlidir. Hələ gənc yaşlarında lirik şeirləri ilə nəzər diqqəti cəlb edən bu istedadlı sənətkar orta əsrin bütün ədəbi janrlarında üç dildə əsərlər yaradıb çox zəngin bir ədəbi irs buraxmışdır. Füzuli Yaxın Şərqdə lirik şeirin ən böyük ustadı, Azərbaycan lirikasının atası sayılır. Qəzəl ustadı kimi şöhrətlənib qəzəl janrının klassik nümunələrini yaradan Füzuli gənc yaşlarında, mədrəsə tələbəsi olduğu zaman diqqəti cəlb etmişdir. Füzulinin lirik şeirə, qəzəl yazmağa xüsusi əhəmiyyət verməsi təsadüfi deyildir. Bu hər şeydən əvvəl, şairin şeiri, sənəti, özünün mütərəqqi görüşlərini geniş xalq içərisində yaymaq,

ürək sözlərini xalq kütlələrinə çatdırmaq üçün sənətin kütləvi bir növündən istifadə etmək təşəbbüsündən irəli gəlmişdir.

**II Aparıcı:**Azərbaycan xalqının böyük şairi, incə duyğular və dərin düşüncələr tərənnümçüsü, mahir söz sənətkarı Füzuli Azərbaycan ədəbi dilinin inkişaf tarixində əlamətdar cəhətlərə malik xüsusi bir mərhələnin yaradıcısı olmuşdur. Füzuli bütün çətinliklərə qatlaşaraq, Azərbaycan ədəbi dilinin "nəzmi - nazik" klassik şeir zirvəsini yaratmaq üçün ərəb və fars şeir dilləri ilə yarışa girə bilən bir ədəbi– bədii dil yaratmaq üçün bütün imkanlara əl atmışdır.

**II Aparıcı:**Füzuli heç bir yerdə, heç bir şeirdə məna ilə şəkil vəhdətini pozmamış, bu vəhdəti bədiiliyin əsas şərti saymısdır. Ona görə də Füzuli sənəti bizə yüksək seir mədəniyyətinin də nümunələrini verməkdədir. O, Nizami, Firdovsi, Əbu Nüvas, Nəvai, Hafiz, Sədi kimi böyük klassiklərin sənətkarlığını, texnikasını, şeir quruluşunu da öyrənmişdi. Füzulinin divanı klassik şərq ədəbiyyatında ən mükəmməl divanlarındandır.
Doğrudur, bu tələb şairi, istər-istəməz qafiyə, rədiflərində çətin, qəliz sözlər işlətməyə məcbur etmisdir. Ancaq burada da biz, yuxarıda dediyimiz kimi, şeirin ümumi quruluşunda, ifadədəki sadəlik və səlisliyin mümkün qədər gözlənilməsinə səy edildiyini görürük.

**I Aparıcı:** Füzuli ədəbi məktəbi, özünün məna, məzmun zənginliyi, bədii yüksəkliyi ilə insan hiss və fikirlərinin bədii ensiklopediyasını təşkil edir. Bu məktəb şeirimizin bədii keyfiyyətini son dərəcə yüksək bir pilləyə qaldırmaqla qalmamışdır. Füzuli haqlı olaraq lirik şeirimizin atası sayılır. O, ədəbiyyat tariximizdə qəlb aləminə vaqif olan və bu aləmin həyatını hərtərəfli, xüsusi bacarıqla, gözəl və şirin bir formada ifadə edən dahi şairdir.

**I Aparıcı:** Füzuli şeirdə Şərq klassizminin hakim olduğu bir dövrdə yazıb yaratmış, bu ədədi ənənə və məktəbin bütün qayda və qanunlarına riayət etmişdir. O, Azərbaycan ədəbiyyatında qəzəlin ən yüksək və klassik nümunələri yaratmışdır. O, özündən əvvəl yaşamış Nizami, Nəsimi, Həbibi, Xətai kimi şairlərin yaradıcılığından öyrənmiş olsa da, çox şeydə öz sələflərindən irəli getmis, öz dühası ilə ana dilində qəzəlin, lirik janrın ən yüksək nümunələrini vermişdir. Onun qədər qəlb həyatının sirrlərinə dərindən vaqif olan şair düşünmək çətindir.

**II Aparıcı:**Füzulinin şeir qüdrəti elə bir nadir istedadın parlaq təcəssümüdür ki, bunun qarşısında səltənət sahibləri baş əyməlidir. Ədəbiyyatımızda Fizuli lirikası yüksəkliyinə qalxa bilən ikinci bir şair tanımırıq. Bu böyük şairin sinəsindən qopanlar əsrlər boyu minlər və yüz minlərcə insanın fikir, hisslərinin tərbiyəsinə xidmət etmiş və edəcəkdir. Azərbaycanda və Şərq ölkələrində yüzlərcə şairlər bu ustadın dalınca getmis, ona oxşadaraq yazmış və müvəffəq olduqda sevinmislər. Doğrudur, Füzuli də Hafiz kimi məhəbbət şairi olaraq şöhrət tapmışdır. Ancaq bu, heç də şairin yaradıcılığının yalnız eşq ilə məhdud olduğu demək deyildir. Onun bir sıra sırf ictimai, əxlaqi, tərbiyəvi məsələlərə həsr olunmuş əsərlərindən ("Hədiqətüs süəda", "Həft cam", müəmmalar və s.) başqa "Mətləül-etiqad" fəlsəfi əsəri də var. Ancaq Füzulinin lirik əsərlərində, məhəbbətdən bəhs edən aşiqanə şeirlərində də ümumi fəlsəfi, əxlaqi, tərbiyəvi məsələlərə aid çox mühüm, maraqlı və orijinal fıkirlər, mülahizələr vardır.

**I Aparıcı:**Füzulinin Azərbaycan bədii fikir tarixinə, eləcə də türkdilli xalqların ədəbiyyatına gətirdiyiən gözəl keyfiyyətlərdən biri müasirlikdir. Şair öz qəsidələrində xalqın təcrübəsinə arxalanan müdrik həyat müəllimi, elmin nailiyyətləri ilə silahlanmış bir alim, kütlələrin ağır həyatını dərindən duyan və onların mənafeyini müdafiə edən həssas,

humanist şair kimi qarşımızda canlanır. Öz dahi müəllimi və ustadı kimi Nizami Gəncəvinin əsərlərini davam etdirən Füzuli qəsidələrində birinci növbədə xalqın qayğısına qalan insanpərvər hökmdar, ədalətli ictimai quruluş haqqında düşünür. Hökmdarlara, valilərə yazdığı mədhiyyələrdə, əsasən, nəsihət xarakteri daşımaqla bərabər, bu ideya ilə ruhlanmaqdadır.

**II Aparıcı:** Füzuli yaradıcılığında xəlqilik birinci növbədə onun lirikasının əsas mövzusundan biri və hətta birincisi olan məhəbbətin tərənnümündə daha qüvvətli təzahür edir. Şair "Məni candan usandırdı, cəfadan yar usanmazmı?", "Pərişan xəlqi-aləm ahu əfqan etdiyimdəndir", "Tutuşdu ğəm oduna şad gördüyüm könlüm", "Yarəb, bəlayi-eşq ilə qıl aşina məni" və başqa insan məhəbbəti, sevgili həsrəti, eşq və ayrılıq iztirabları tərənnüm edən bir çox qəzəlləri xalqın dilində əsrlərcə ona görə əzbər olmuşdur ki, Füzuli bu şeirlərdə sadə insanların ruhuna, qəlbinə dərindən nüfuz edə bilmiş, onların canlı hisslərini, kədər və iztirablarını həyat həqiqəti kimi yüksək bədii ümumiləşdirmələrlə, əsil sənətkarlıq ehtirası ilə sadə, təbii və aydın formada ifadə etmişdir.

Tutuşdu ğəm oduna şad gördüyüm könlüm,
Müqəyyəd oldu ol azad gördüyüm könlüm.
Diyari-hicrdə seyli-sitəmdən oldu xərab,
Fəzayi-eşqdə abad gördüyüm könlüm.

**I Aparıcı:** Füzulinin böyüklüyü bir də orasındadır ki, o, öz seirlərində, XVI əsrə qədər ana dilimizdə yazan şairlərin bütün yaxşı təcrübələrini hesaba almış, onu böyük cürət və məharətlə inkişaf etdirmişdir. Lirikanın ən qiymətli nümunələrini verməklə ədəbiyyat tariximizdə yeni, çox böyük və gözəl bir məktəb açmışdır. O, ana dilinin bütün gözəlliklərini, imkan və qüdrətini parlaq surətdə nümayiş etdirmişdir. Bu məktəb klassik ədəbiyyatdakı köhnəlmiş qayda və normaları qırmaqda, inkişafa mane olan klassisizm ənənələrinə cəsur, azad və hünərli yanaşmaqda böyük tarixi xidmət göstərmişdir. Füzulinin böyük

sənətkarlıq hünəri orasındadir ki, o, işlənmiş söz, ifadə formalarına da tamam yeni, orijinal şəkil, yeni məna, yeni məzmun və xarakter verir.
**II Aparıcı:** Füzuli lirikasının əsil qüvvət və qüdrət mənbəyi xalqdır, həyatdır. Lakin aydındır ki, söz sənətinin ən böyük nailiyyətlərindən biri olan Füzuli şeiri yalnız yüksək mədəni inkişaf nəticəsində yarana bilərdi. Füzuli üç dili mükəmməl bilməsi sayəsində türkdilli xalqların mədəniyyətini, fars və ərəb dillərində yaradılmış elmi, ədəbi abidələri əsaslı sürətdə öyrənmiş mütəfəkkir bir sənətkardır. Füzulinin lirikasında insan, onun əzəmətli, parlaq camalı təbiətdə olan bütün varlıqlardan üstün, qiymətli göstərilmişdir. Şair öz əsərlərində bədii sözün qüdrəti ilə bir-birindən cazibəli, əlvan, gözəl surətləri yaratmışdır.

**II Aparıcı:**Füzuli şeirə, sənətə fitrətən məftun idi. Ona görə də hər bir zəhmətə, "tənəyə, nəfi-nifrinə" dözərək istirahəti özünə haram edərək, bütün həyatını şeirə sərf etmişdir. Bu böyük vəzifəni icra etməyə başlarkən onu da gözəlcə bilirdi ki, öz diriliyində şeiri xalqa xidməti ucundan əzab-əziyyətlərə, rəsmi dairələrin nifrətinə səbəb olacaqdır. Bunu qabaqcadan görürdü:
Bir dövrdəyəm ki, nəzm olub xar,
Əşar bulub kəsadi-bazar...
Min riştəyə türfə ləl çəksəm,
Min rövzəyə nazənin gül əksəm,
Qılmaz ona heç kim nəzarə,
Derlər gülə xar, lələxarə

**I Aparıcı:** Füzuli əsərlərinin bədii-estetik təsir gücü ondadır ki, bu ədəbi irs zəngin xalq folklor materialları və Şərq ədəbiyyatının ən mütərəqqi ənənələri əsasında yaranmışdır. Şair bu əsərlərdə xalq yaradıcılığı xəzinəsindən, xalqın bədii dühasından gen-bol bəhrələnmiş, orijinal təsvir üsulunun köməyi ilə özünün poetik dünyasını yaratmışdır. Füzuli qədim

yunan və Şərq fəlsəfəsi ilə tanış idi. Onun fəlsəfi görüşləri əsasən ərəb dilində nəsrlə yazdığı "Mətləül-etiqad" əsərində əksini tapmışdır. Füzuli burada Aristotel, Platon, Empedokl, Demokrit və başqa yunan filosoflarının fikirlərindən, ən-Nizamın fəlsəfi irsindən təsirlənmişdir. Füzulinin başqa əsərlərində də ədəbi fəlsəfi fikirlərə təsadüf edilir.

**I Aparıcı:** Füzulinin özü, öz sənəti haqqında dediyi əsərlərində başqa bir xüsusiyyət də var: o, həmişə bir aşiq kimi çıxış edir... "Mən aşiqəm, həmişə sözüm aşiqanədir"-deyə, sənətinin ruhunu, səciyyəsini ifadə etmiş olur. Bu da onun lirik bir şair olduğundan, lirikanı hər bir bədii motivdən yüksək qiymətləndirdiyindəndir. Buna görə də Füzuli eşqinin, məhəbbətinin saflığını, möhkəmliyini, dərinliyini, "cahansuz" olmasını iftixarla söyləyir. Füzulidə özünü bir aşiq olaraq tərif edən, hətta ən məşhur, tarixi aşiqlərdən Məcnunun, Fərhad, Vamiq, Sənan və s. üstün tutan misralar çoxdur. Ancaq özünü bir şair kimi başqa şairlərdən yüksək tutduğunu göstərən parçalar yoxdur. O, Nizamidən, Nəvaidən Cəliliyə, Həssana kimi bir çox böyük və kiçik sairlərin adını çəkir. Heç bir vaxt və heç bir yerdə özünü onlardan yuxarı tutmur. Öz hünərini, təbinin gücünü ifadə etmək lazım gələndə də eşqdən, məhəbbət aləmindən, bu aləmin sirlərindən bəhs açır. Füzuli Nəsimidən sonra ana dilimizdə yaranmış şerin ən gözəl nümunələri olan əsərləri ilə ədəbi-bədii dilimizi yeni yüksəkliklərə qaldırmış, klassik Azərbaycan, habelə digər türk xalqlarının poeziyasına qüvvətli təsir göstərmiş, ədəbi məktəb yaratmışdır. Onun əsərləri Təbrizdə, Bakıda, İstanbulda, Ankarada, Qahirədə, Daşkənddə, Buxarada, Aşqabadda dəfələrlə nəşr edilmiş, dünya şərqşünasları tərəfindən yüksək qiymətləndirilmişdir.

**Yekun:** Bu gün dünya poeziyasında Füzuli öz mərtəbəsində, öz şöhrət taxtında bərqərardır. Günəş istisinə ehtiyacı olan insanların mənəvi istisi, kolorisi və ehtiyacını ödəyən, onları

sözün qüdrəti ilə saflaşdıran, yaşadan dühalar sırasında M.Füzulinin də adının çəkilməsi əbəs deyil. Özünü "aşiqi-sadiq" adlandıran şairin aşiqanə sözə üstünlük verməsinə, tərif və tənqiddən uzaq olmaq istəyinə baxmayaraq, humanist, incə qəlbli şair kimi baş alıb gedən bəlalara, ədalətsizliyə də biganə qala bilməzdi. Odur ki, çoxşaxəli, zəngin ədəbi irsində lirika ilə bahəm ictimai motivlərə də diqqət ayıran şairin "qəm karvanı", "dərd çox, həmdərd olmayan" mühitdə şeirin "dərd –qiyməti", "türk-azəri dilinin nüfuzu bilinmədiyi bir məmləkətin yükünü də daşımağa məcbur idi. Buna baxmayaraq, nədən yazırsa yazsın, Füzuli hər şeydən əvvəl bir şair kimi bu poetic andına sadiq qalırdı:

Məndən, Füzuli, istəmə əşari-mədhü zəmm,
Mən aşiqəm, həmişə sözüm aşiqanədir.

Füzuli yaradıcılığı ölməzdir. Əsrlər boyu bu yaradıcılıq yüksək keyfiyyətli sənət əsərləri yaratmaq üçün sənətkarlarımıza ilham və qüvvət vermışdir. Heç şübhə yoxdur ki bu gün və sabah da bu zəngin xəzinə şair, ədib və dramaturqlarımıza çox incilər bəxş edəcək, ölməz sənət əsərlərinin yazılmasında öz qüvvətli təsirini göstərəcəkdir. Biz nəhayət onunla fəxr edirik ki, bəşəriyyəti zülmdən, məhkumiyyətdən və göz yaşlarından əbədi xilas etmək uğrunda aparılan tarixi mübarizələrin ön sırasında gedən və ictimai inqilab bayrağını ilk dəfə qaldıran xalqlar sırasında böyük şairin mənsub olduğu qəhrəman Azərbaycan xalqı da vardır. İndi böyük şairin əsərləri on min nüsxələrlə, bir neçə dildə nəşr olunur, məktəb proqramlarında, dərsliklərdə tədris olunur, musiqiyə salınır, səhnələşdirilir, göylərə səs salan radiolarla dünyaya yayılır. Böyük şairin heykəli Bakının görkəmli yerlərindən birində qürur və iftixarla dayanmışdır. Onun adı ilə küçələr, məktəblər, kitabxanalar, mədəniyyət evləri və sairə adlandırılmışdır. Azərbaycan şeirinin qabaqcıl nümayəndələri dahi şairə, bir doğma övlad məhəbbətilə, xələf şagird sədaqətilə bağlanaraq onun möcüzəvi sənətkarlıq sirrlərini öyrənir, sənətlərini təkmilləşdirirlər. Füzulinin ölməz

sənəti onu öz xalqına və eləcə də tərəqqipərvər bəşəriyyətə elə möhkəm bağlamışdır ki, nə zaman, nə məkan, nə din, nə dil fərqi onu müasir qabaqcıl insanlardan ayıra bilməz:

Gör nə sultanəm məni-dərviş kim feyzi-söxən,
Eyləmiş iqbalimiasari-nüsrət məzhəri.
Hər sözüm bir pəhləvandır kim bulub təyidi-həqq,
Əzm qıldıqda dutar tədric ilə bəhrü bəri,
Qanda kim əzm etsə mərsumu məvacib istəməz,
Qansı mülkü tutsa, dəyməz kimsəyə şuru şəri...!

Doğrudan da, Füzuli şeirinin fəth etdiyi "mülk"' hədsiz, hesabsızdır. Bu şeir milyonlarla qəlbləri fəth etmişdir. Kimsəyə nəinki şüur-şəri dəyməmiş, əksinə, qəlblərə münəvvərlik, saf məhəbbət, təmiz, pak hisslər, yüksək mənəvi zövq və iıısani ləyaqət gətirmişdir. bu şeirin "fəth" etdiyi qəlblərə yabançı hisslər və fıkirlər çətin yol tapa bilər. Füzuli dühasının mənəvi nuru müasir şairlərimizin hər birinin zehnində cilvələnə bilər və cilvələnir. Çünki şeir günəşi zamanından, məkanından və dərəcəsindən asılı olmayaraq, hər bir yerdə qəlbləri işıqlandırmaq məqsədi daşıyır... Həqiqi sənətin və şeirin zəngin, əlvan məna şüaları qəlblərin ən dərin guşəsini də işıqlandırır. Belə bir qüdrət və şərəf hər kəsdən əvvəl dahi Füzulinin ecazkar şeir sənətinə aiddir. Məhəmməd Füzulinin yaratdığı əsərlər bundan sonra gələn nəsilləri də xalqa, millətə, torpağa, vətənə sədaqət ruhunda tərbiyyə edəcək, hazırlayacaqdır. Füzuli dahi şair kimi Azərbaycanda həmişə hamının qəlbindədir. Bu da ona görədir ki, Füzuli doğurdan da azərbaycanlıdır və Azərbaycana mənsubdur. Füzuli yalnız öz doğma vətəni Azərbaycanda deyil, bütün Yaxın Şərqdə, Avropada və Rusiyada tədqiq edilib, öyrənilmiş, yüksək qiymətləndirilmişdir. O, Azərbaycan xalqının yetişdirdiyi ölməz sənətkarlardandır, bu gün xalqımız şairin zəngin irsindən bəhrələnir və hər zaman bəhrələnəcəkdir.

**Ədəbiyyat siyahısı**
**Əsərləri**

Əsərləri : 6 cilddə. - Təkrar nəşr, 1996-cı il nəşri əsasında. - Bakı : Şərq-Qərb, 2005. - (Klassik Azərbaycan Ədəbiyyatı).

C. 1. – 400 s. - (cildli).

C. 2. – 336 s.

C. 3 . – 472 s. - (cildli).

C. 4. – 344 s.

C. 5. – 224 s.

C. 6. – 384 s.

Əsərləri : 2 cilddə. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1995. - Məhəmməd Füzulinin 500 illiyinə həsr olunur.

C. 1. – 511 s.

C. 2. – 519 s.

Seçilmiş əsərləri : Poeziya. - Bakı : Çaşıoğlu, 2004. - 600 s. - (Azərbaycan Ədəbiyyatı).

Seçilmiş əsərlər. - Bakı : Altun kitab, 2005. - (Azərbaycan Klassik poeziyası).
C. 1. – 327 s.
C. 2. – 263 s.

Seçilmiş əsərləri : 3 cilddə. - Bakı : Şərq-Qərb, 2013. - il.

C. 1 : Qəzəllər, qitələr, rübailər. – 712 s.

C. 2 : Qəzəllər, qitələr, rübailər. – 808 s. - (qalın cildli).

C. 3 : Poemalar, qəsidələr, qəzəllər. – 492 s. - (qalın cildli).

Fələklər yandı ahimdən... : Seçilmiş əsərləri. - Bakı : Kitab klubu MMC, 2017. - 456 s. - (Klassiklərim). - Lüğət: s.: 430-447.

Leyli və Məcnun. - Bakı : Gənclik, 1993. - 232 s. : portr.  - kiril əlifbası ilə. (cildli).

Meyvələrin bəhsi. - Bakı : KHATT, 2015. - 28 s. : rəngli şək. - (Məktəblinin masaüstü kitabları).

Meyvələrin söhbəti . - Bakı : Bərpanəşr, 2016. - 14 s. : rəngli il. - Bərpanəşr layihəsi.

***Kitablarda***

Şikayətnamə // Türk xalqları nəsri antologiyası. - Bakı : Çaşıoğlu, 2007. - S. 49-55.

**Elektron resurslar**

Seçilmiş əsərləri [Elektron resurs]. - Electron mətn. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

**Cəfərov N.** Türk xalqları ədəbiyyatı [Elektron resurs]. - Electron mətn. **II cild**. - Bakı : İnnovativ Tədris Mənbələri (İTM) QSC, 2012. - 1 el. opt. disk (CD-ROM) : birrəngli ; 12 sm. - (Nizami layihəsi). - (qutuda).

**Haqqında**

**Kitablar**

**Bayramlı Z.** Füzuli və çağdaş ədəbi-nəzəri fikir. - Bakı : Elm, 2010. - 148 s.

**Əliyeva - Kəngərli G.** Bədii düşüncə: tarixi gerçəklik və estetik ideal. - Bakı : Təhsil, 2011. - 408 s.

**Əlizadə L.** Məhəmməd Füzuli : Metodik tövsiyyələr və elmi tədqiqi məqalələr məcmuəsi. - Bakı : Şəms, 2007. - 92 s.

**Xəliloğlu S.** Füzuli ədəbi estetikası. - Bakı : Adiloğlu, 2004. - 418 s.

**Xəyal S.** Ey  Füzuli... - Bakı : MBM, 2010. - 79 s.

**Qarayev Y.** Şərqin dahisi = The genius of the East = Гений Востока = Genie del` Orient : Füzuli 500. - Bakı : Azərbaycan Ensiklopediyası NPB, 1996. - 56 s. : şək.  - Azərbaycan, ingilis, rus və fransız dillərində.

**Məhəmməd Füzuli (1494-1556) //**  Azərbaycan ədəbiyyatı tarixi : 6 cilddə. - Bakı : Elm, 2009. – C.3. – S. 385-443.

**Nərimanoğlu K.** Mənim Füzulim : Düşüncələr, portretə ştrixlər, məqalə və çevirmələr. - Bakı : Çinar-çap, 2006. - 461 s.

***Haqqında***

***Kitablarda***

**Feyzullayeva V.**  Nəsimi və Füzuli // Nəsimi. - Bakı : Elm, 1973. - S. 205-217.

**Qacar Ç.** Türkdilli poeziyanın nəhəngi : Füzuli  // Azərbaycan qədim və orta əsrlərdə. Görkəmli şəxsiyyətlər. - Bakı : OKA ofset, 2012. - S. 293-298.

**Nəbiyev B.** Azərbaycan klassik poeziyası və islami dəyərlər // Xəzan vurmasın. - Bakı : Elm, 2006. - S. 24-38.

**Sadıq F.** Füzuli şair sözünün sinonimidir // Taleyin acığına. – Bakı : Çinar-Çap, 2003. - S. 239-240.

**Təhməz B.** Olmaz : Məhəmməd Füzulinin 500 illiyinə // Seçilmiş əsərləri. - Bakı : Araz, 2010. - S. 74.

## *Dövri mətbuatda*

**Abbaslı T.** İstedadın dadı... : Məhəmməd Füzuli – 520 // Mədəniyyət. – 2014. – 18 iyul. - № 55. – S. 13.

**Açıqgöz N.** "Leyla və Məcnun"da məktub : "Türk ədəbiyyatı" dərgisi qonağımızdır // Qobustan. – 2014. - № 2. – S. 21-23.

**Ağəddin.** Üç portret : [Əzim Əzimzadə haqqında] // Qobustan. – 2016. - № 1. – S. 55. – Üş portretdən biri Füzuliyə aiddir.

**Amin S.** Allah və insan, ata və oğul - "Rind və Zahid" // Ədəbiyyat qəzeti. - 2017. - 28 yanvar. - № 3. - S. 4.

**Azəri L.** Füzulinin söz dühası muğamların ahəngində : dahi şairin qəzəllərindən ibarət muğam gecəsi keçirildi // Mədəniyyət. - 2016. - 18 noyabr. - № 88. - S. 5.

**Babayev Y.** Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının tədrisi // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2017. - № 1. - S. 4-14.

**Banarlı N. S.** Füzulinin duası : görkəmli orta əsr Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2014. - 24 oktyabr. - № 41. - S. 1;9.

**Bayramlı Z.** Bağdaddan doğan şeir günəşi : görkəmli orta əsr Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli haqqında // Azərbaycan. - 2015. - 6 fevral. - № 28. - S. 10.

**Bayramlı Z.** Füzulinin diqqətini çəkən bir qəzəl : [Orta əsr şairi Süruri haqqında] // Ədəbiyyat qəzeti. - 2017. - 15 iyul. - № 25. - S. 30.

**Bayramlı Z.** Hiç kim... laf etməsin : Firidun bəy Köçərlinin Füzuli poeziyasına münasibəti haqqında // Azərbaycan. - 2014. - № 2. - S. 176-180.

**Başirli Ə.** Zülmətdə məşəl : esse // Azərbaycan. - 2014. - № 2.

- S. 135-139.

**Dünyamalı Qızı Z.** X sinif. Məhəmməd Füzulinin "Leyli və Məcnun" poemasının təhlili // Təhsil problemləri. - 2014. - 24-31 oktyabr. - № 77/78. - S. 5-6.

**Əliyev Z.** Dərd şairinin möhtəşəm abidəsi // Mədəniyyət. - 2018. - 30 mart. - № 25. - S. 12.

**Əliyeva-Kəngərli G.** Füzuli dühası "Füyuzat"ın səhifələrində // Füyuzat. - 2014. - № 3. - S. 26-29.

**Əliyeva-Kəngərli G.** Ruzigarın yeganəsi - əbədi şöhrətin zirvəsi : görkəmli orta əsr Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli haqqında // Azərbaycan. - 2014. - 21 noyabr. - № 254. - S. 10.

**Əliyeva-Kəngərli G.** Sözə ehya veriləndə : görkəmli orta əsr Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzuli yaradıcılığı haqqında // Ədəbiyyat qəzeti. - 2014. - № 4.

**Həsənquliyev M.** M.Füzulinin yaradıcılığında qitə janrı // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2015. - № 4. - S. 17-20.

**Hüseyn F.** Məcnunlar və Leyli // Kaspi. - 2018. - 10 fevral. - № 27. - S. 20. ; 3 mart. - № 42. - S.20.

**Xavəri S.** Zamanın poetik "stop kadr" anı : Füzulinin "Heyrət, ey büt..." beyti bədii mətnin semantik təhlili prizmasından // Ədəbiyyat qəzeti. - 2018. - 9 iyun. - № 23. - S. 3. ; 23 iyun. - № 24. - S.19. ; 30 iyun. - № 25. - S.13.

**Xəyal S.** Füzulini müalicə etmək istəyən şair // Azərbaycan. - 2015. - № 2. - S. 176-178.

**Qasımlı M.** Füzuli şerində oğuz elat nəfəsi // Ədəbiyyat qəzeti. - 2015. - 14 mart. - № 16/17. - S. 18-19.

**Məmmədov A.** Məhəmməd Füzuli tədris edilərkən... // Azərbaycan dili və ədəbiyyat tədrisi. - 2017. - № 2. - S. 11-17.

**Muxtar R.** Məhəmməd Füzuli. VII yuxu // Səs. - 2016. - 30 noyabr. - № 220. - S. 12.

**Musayeva İ.** Füzulinin "Leyli və Məcnun" əsərinə yeni baxış : Azərbaycan ədəbiyyatşünaslığında klassik irs problemi // Ədəbiyyat qəzeti. - 2015. - 13 iyun. - № 38/40. - S. 24-25.

**Musayeva, İradə.** Azərbaycan ədəbiyyatşünaslığında klassik irs problemi : M.Füzulinin "Leyli və Məcnun" əsərinə yeni baxış haqqında... // Ədəbiyyat qəzeti. - 2015. - 30 may. - № 34/35. - S. 26. ; 6 iyun. - № 36/37. - S. 6-7.

**Nağısoylu M.** Bir nöqtənin hökmü : Füzulinin bir öncəgörməsi haqqında // Azərbaycan. - 2018. - № 1. - S. 182-186.

**Ömərov V.** Məhəmməd Füzuli yaradıcılığında insan hüquqlarının müdafiəsi məsələləri // Səs. - 2016. - 5 iyul. - № 119. - S. 15.

**Ömərov V.** Məhəmməd Füzulinin sosial-siyasi ideyaları və insan haqları // Səs. - 2016. - 2 iyul. - № 118. - S. 15.

**Saatçı S.** Füzulinin qəbirüstü abidəsi // Ədəbiyyat qəzeti. - 2018. - 24 noyabr. - № 44. - S. 5.

**Talıbzadə A.** "Bəngü-Badə" nin dumanı və həqiqətləri // Ədəbiyyat qəzeti. - 2018. - 27 oktyabr. - № 40. - S. 7.

**Yoxdan var :** Məhəmməd Füzuli haqqında qiymətli monoqrafiya : bu il dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 520 ili tamam olur // Mədəniyyət. - 2014. - 2 iyul. - № 50. - S. 14.

**Yusifli V.** Şair Füzuli - alim Füzuli : tənqid tariximizdən // Ədəbiyyat qəzeti. - 2016. - 30 aprel. - № 16. - S. 26-27.

**Yusifli V.** Füzuli ədəbi estetikası : "Tənqid tariximizdən" VII yazı // Ədəbiyyat qəzeti. - 2016. - 3 sentyabr. - № 32. - S. 24-25.

**Yusifoğlu Ə.** İdrakın şöləsi : məqalədən bir parça //

Azərbaycan. - 2014. - № 2. - S. 172-175.

### *Məhəmməd Füzuliyə həsr olunmuş bədii dəbiyyat*

**Xəzri N.** Füzuli ilə söhbət : şeir // Seçilmiş əsərləri : 2 cilddə. – Bakı : lider, 2004. – C. 2. – S. 188-189.

**Səfərli İ.** Qəlb şairi : Füzuliyə ithaf // Seçilmiş əsərləri. - Bakı : Lider, 2005. - S. 167-169.

**Vahabzadə B**. Şəbi-hicran : poema. // Şəbi-hicaran : poemalar. – Bakı : Renessans-A, 2016. – S. 9-92.

**Vurğun S.** Füzulinin dərdi : şeir // Azərbaycan : tarixi poema (1934-1935). - Bakı : Şərq-Qərb, 2015. – S.35-36.

**Yaqub Z.** Məhəmməd Füzuliyə ; Görüş-ayrılıq ; Füzuli-Sabir : şeirlər // Seçilmiş əsərləri. 2 cilddə. - Bakı : Şərq-Qərb, 2006. – C. 2.- S. 139-142.

# Klassik şeirimizin iftixarı– Məhəmməd Füzuli

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Ruhiyyə Məmmədli**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**